QARABAĞ AZƏRBAYCANDIR!



Mehriban Əliyevanın göstərişi ilə daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb

7

# Yeni proqram Böyük Qayıdışı yaxınlaşdırır

2



Səs

№ 029 (6712) 16 fevral 2023-cü il. Qiymәti 60 qәpik

# Ermənistan üçün İTİRİLMİŞ İLLƏR




4

Azərbaycan elmi elitasının görkəmli nümayəndəsi-ARİF PAŞAYEV



3

Dörd həyat, dörd ümid, dörd arzu



10

İrəvan tarixi Azərbaycan diyarıdır



13

## “Bu, Ermənistan üçün pis qurtaracaq”



15

## Azərbaycanda bələdiyyə bağçalarının açılması təklif edilir

*Azərbaycanda bələdiyyələrin uşaq bağçaları açması təklif edilir. SİA-nın məlumatına görə, bu təkliflə Milli Məclisin Regional məsələlər komitəsinin dünən keçirilən iclasında deputat Tahir Rzayev çıxış edib.*



16





# Yeni proqram Böyük Qayıdışı yaxınlaşdırır

***44 günlük müharibəni şanlı qələbə ilə başa çatdırdıqdan sonra Azərbaycan dövlətinin qarşısına qoyduğu milli prioritetlərdən biri də işğaldan azad etdiyi torpaqlara tezliklə Böyük qayıdışı gerçəkləşdirmək idi. Buna görə də Vətən müharibəsindən dərhal sonra tarixi ərazilərimizdə geniş quruculuq və bərpa işlərinə start verildi. Qarabağa və Şərqi Zəngəzura yenidən həyatın qaytarılması üçün birbaşa dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti və diqqəti altında bu ərazilərdə dünyada misli görünməmiş meqalayihələrin icrasına başlanıldı.***



*İLHAM ƏLİYEV: "Biz iki il ərzində böyük quruculuq işləri görmüşük, Qarabağı və Şərqi Zəngəzuru faktiki olaraq yenidən qururuq və quracağıq"*

Prezident İlham Əliyevin zəfərdən ötən bu ikiillik qısa zaman kəsiyində mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər etməsi, erməni vəhşilərinin yerləyeksan etdiyi qədim şəhərlərimizin yeni bünövrələrini qoyması, yeni yolların, tunellərin, beynəlxalq hava limanlarının təməllərini atması, bütün infrastrukturu başdan yaratması Böyük qayıdışın tezliklə reallaşdırılmasına mühüm təkan verdi.

Azərbaycan ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri öz iqtisadiyyatının gücü sayəsində yenidən qurur, bu ərazilərdə irimiqyaslı müasir infrastruktur layihələri icra edir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş bu proqram Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir və müstəqil Azərbaycan tarixinə Qarabağın yenidən qurulmasını tənzimləyir. Elmi cəhətdən də əsaslandırılmış mükəmməl sənəd olan Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Dövlət proqramı 2022-2026-cı illəri əhatə edir.

Proqramda deyilir ki, Azərbaycan hökuməti 2027-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzurda 280 min ha ərazinin minalardan təmizlənməsini planlaşdırır. Dövlət Proqramında qeyd olunur ki, 2020-2022-ci illərdə 57,6 min ha ərazi minalardan təmizlənib.

Sənəddə qeyd olunan planlara əsasən, 2024-cü ildə Laçın Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. 2026-c ildə qədər Ağdam-Xankəndi qaz kəməri tikiləcək, sərhəddə keçid məntəqələri fəaliyyətə başlayacaq. 2026-cı ildək Qarabağ və Şərqi Zəngəzura 10 min 270 ailə, 2027-ci ilə qədər – 34 min 500 ailə köçürüləcək. 2027-ci ilədək burada 34,5 min mənzil və fərdi yaşayış evi inşa ediləcək. Bu vaxta qədər Qarabağ və Şərqi Zəngəzurda hərbi infrastruktur möhkəmləndiriləcək, burada həmçinin enerji, nəqliyyat, idman, sosial və digər infrastruktur inşa olunacaq. 2026-cı ilə qədər burada 197 məktəbəqədər və ümumi təhsil müəssisəsi tikiləcək və bərpa ediləcək, 2027-ci ilədək isə regionda ali məktəbin bir filialı fəaliyyətə başlayaq, DOST mərkəzlərinin 7 filialı açılacaq.

Böyük Qayıdışa dair I Dövlət Proqramı ancaq bu ərazilərə insanları qaytarmaqla kifayətlənmir. Proqramda həm də dayanıqlı icmaların yaradılması, sahibkarlıq fəaliyyəti, gələcəkdə məşğulluğun təmin edilməsi və s. kimi kompleks məqsədlər nəzərdə tutulur. Bir sözlə, sənədə əsasən, 2027-ci ilə qədər regionda ipoteka sistemi istifadəyə verilməlidir və ilkin turizm infrastrukturu formalaşdırılmalıdır.

## AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR

Bəli, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. 2023-cü il üçün dövlət büdcə layihəsinə əsasən, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat nəzərdə tutulub. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir.

O da məlumdur ki, işğaldan azad olunmuş ərazilərin böyük iqtisadi potensialı var. Bu potensialın reallaşdırılması üçün işğaldan azad olunmuş ərazilərdə yeni müəssisələr tikilməli, sahibkarlıq fəaliyyətləri qurulmalıdır. Bu fəaliyyətlərin uğurla qurulması üçün investorları stimullaşdıracaq uzunmüddətli vergi və gömrük güzəştləri tətbiq olunacaq. Proqramın icrası müddətində işğaldan azad olunmuş torpaqlarda yaradılacaq yeni istehsal sahələri bu ərazilərə qayıdacaq insanların işlə təmini məsələlərini də qabaqcadan həll etməyə kömək edəcək.

Həmçinin, Dövlət Proqramının əsas hədəfləri həm infrastrukturun formalaşdırılması, yenidən qurulması, həm iqtisadiyyatın formalaşması və reinteqrasiyası, sosial inkişaf, həm də ətraf mühitdə tarazlığın qorunması, "yaşıl iqtisadiyyat"ın formalaşdırılmasından ibarətdir. Qeyd edək ki, işğal müddətində Qarabağ və Şərqi Zəngəzurda infrastruktur tamamilə dağıdılıb. Onların yenidən qurulmasına ehtiyac var və bu istiqamətdə də intensiv şəkildə işlər gedir. Həmçinin, Proqramda "yaşıl iqtisadiyyat", "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyalarına uyğun olaraq yaşayış məntəqələrinin salınması, alternativ enerji mənbələrindən daha çox istifadə edilməsi nəzərdə tutulub. Buraya ətraf mühitin qorunmasına və işğal müddətində Ermənistanın törətdiyi ekoloji soyqırımdan sonra ekologiyanın yenidən formalaşması, yaşıllıqların artırılması kimi hədəflər daxildir. Bütövlükdə Proqramın əsas özəlliyi ondan ibarətdir ki, sənəddə konkret hədəflər və fəaliyyətlər müəyyən olunub. Hər fəaliyyətə məsul olan dövlət qurumu müəyyənləşdirilib. Bir sözlə, I Dövlət Proqramının imzalanması birmənalı şəkildə qayıdış prosesinin daha da sürətlənməsinə şərait yaradacaq.

## QISA ZAMANDA GERÇƏKLƏŞDİRİLƏN NƏHƏNG UĞURLAR

Artıq qələbəmizdən ötən iki il müddətində Qarabağda və Şərqi Zəngəzurda quruculuq və bərpa işləri ilə əlaqədar mühüm layihələr gerçəkləşdirib. Artıq qələbədən sonra Böyük qayıdışa uğurlu start verilib və Zəngilan rayonunun Ağalı kəndinə sakinlər köçürülüb.

İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı infrastruktur layihələri icra olunur. Füzuli Beynəlxalq Hava Limanı cəmi səkkiz ay ərzində tikilib. Ötən il oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib. 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi nəzərdə tutulur. Bərdə-Ağdam dəmir yolu 2023-cü ildə istifadəyə veriləcək. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edildi. 2022-ci il martın 15-də Azərbaycanda inşa ediləcək 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirildi. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialı on min meqavat təşkil edir. Artıq bir neçə su-elektrik stansiyasının açılışı olub. Su elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq. Yerdə qalan güc isə günəş və külək elektrik enerjilərindən qaynaqlanacaq.

Ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən quruculuq, bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrılıb. Böyük qayıdışın tərkib hissəsi kimi Qarabağ və Şərqi Zəngəzurda əhalinin dayanıqlı məskunlaşması üçün ilkin şərtlərin yaradılmasıdır.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar.

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycan elmi elitasının görkəmli nümayəndəsi-ARİF PAŞAYEV



*"Böyük ürək sahibi, nurlu, mehriban İnsan! Ad günün mübarək! Sənə möhkəm cansağlığı, gümrahlıq və gözəl əhvali-ruhiyyə arzulayıram! Sən gözəl ata və qayğıkeş babasan! Sənə sevgimiz sonsuzdur! Ömrün uzun olsun! Uca Allah bütün valideynləri qorusun!".*

## Mehriban xanım Əliyeva: "Akademik Arif Paşayev mənim üçün insanlıq, xeyirxahlıq və müdriklik idealıdır"



Bu sözləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan elmi elitasının sayılıb-seçilən nümayəndələrindən biri olan akademik Arif Paşayevin doğum günü ilə əlaqədar rəsmi instaqram səhifəsində etdiyi paylaşımda qeyd edib.

Görkəmli alim, fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, Beynəlxalq Mühəndislik Akademiyasının vitse-prezidenti, Azərbaycan Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, bir çox beynəlxalq akademiyaların üzvü, Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevin 15 fevral tarixi doğum günüdür. Böyük bir ömür yolu keçmiş ziyalının yaratdığı tərcümeyi-halı onun ömür yolunun salnaməsidir. 1934-cü ildə Bakıda ziyalı ailəsində anadan olan Arif Paşayevin həyat yoluna nəzər saldıqda görürük ki, onun keçdiyi yolun naxışı soxşaxəli fəaliyyətinə dərin izlər salıb. Azərbaycan yazıçısı Mir Cəlal Paşayevin ailəsində böyüyüb boya-başa çatan Arif Paşayevin mükəmməl təhsilində, bir zayalı kimi yetişməsində rolu böyükdür. Mir Cəlal Paşayev "Mənim ən gözəl əsərim ailəmdir", - deyərmiş. Ədibin bu fikirləri övladlarına verdiyi tərbiyənin düzgünlüyündən, onlara aşıladığı mənəvi keyfiyyətlərdən, cəmiyyət üçün nə qədər faydalı insanlar olacaqlarına inamından irəli gəlirdi. Əlbəttə ki, bu inam və diqqət onların vətənə gərəkli bir şəxsiyyət kimi yetişməsində mühüm rol oynamış oldu. Görkəmli yazıçının ocağına hər zaman dövrün tanınmış ziyalıların toplaşması övladlarının dünyagörüşünün formalaşmasına təsirsiz ötüşməmişdi.

Tərcümey-halına nəzər saldıqda görürük ki, Arif Paşayev 1957-ci ildə Odessa Elektrotexnika Rabitə İnstitutunu radiofizika ixtisası üzrə bitirmiş, 1959-cu ildən AMEA-nın Fizika İnstitutunda elmi fəaliyyətə başlamışdır. Həmin vaxtdan o, yarımkeçirici materialların elektrofiziki parametrlərini kontaktsız ölçmək üçün cihazlar, maşınqayırma məmulatına nəzarət üçün cərəyan burulğanlarından istifadə edən qurğular, mikrominiatür dəqiq çeviricilər yaradıb seriya ilə istehsala buraxmışdır. Bu qurğular dünyanın bir çox elm mərkəzlərində, gəmiqayırmada, maşınqayırmada, hərbi sənayedə və digər istehsalat sahələrində müvəffəqiyyətlə tətbiq olunur. Alimin əldə etdiyi elmi nəticələrin bir çoxu ixtira səviyyəsində işlənib beynəlxalq sərgi və müsabiqələrdə qızıl, gümüş medallar və diplomlarla təltif olunmuş, bir sıra sənaye müəssisələrində tətbiq edilmişdir.



Görkəmli alim 1960–1964-cü illərdə Moskvada "QİREDMET" İnstitutunda aspirant olmuş, 1966-cı ildə isə "Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Daima axtarışda olan, elmi nailiyyətləri ilə artıq tanınan alim 1978-ci ildə "Yarımkeçiricilərin tədqiqində qeyri-dağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiqi perspektivləri" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Beynəlxalq Nəqliyyat, Beynəlxalq Mühəndislik, Beynəlxalq Ekoenergetika, Beynəlxalq Elmlər, Beynəlxalq İnformasiya akademiyalarının akademiki Arif Paşayevin elmi axtarışlarının əsas istiqaməti yarımkeçiricilər fizikası və texnikasıdır. O, yüksək və ifratyüksək tezlikli diapazonlarda materialların zədəsiz tədqiqatlarının fiziki əsaslarını yaratmışdır. Akademik 40 ildən artıq bir dövrdə zədəsiz nəzarət yarımkeçiricilər fizikasının və ölçmə istiqamətlərinin elmi əsaslarının inkişafı, yeni istiqamətlərin yaradılması və onların tətbiqi ilə məşğul olmuşdur.

Akademik Arif Paşayev 300-ə yaxın elmi əsərin, 15-dən artıq kitabın və monoqrafiyanın müəllifidir. Alim 30-dan çox ixtiraya görə müəlliflik şəhadətnaməsi və sənaye nümunələri almış, medallar və diplomlarla təltif olunmuşdur. Bundan əlavə, Arif Paşayev Azərbaycan Respublikasının Dövlət mükafatına, fizika sahəsindəki yüksək nailiyyətlərinə görə "SSRİ-nin ixtiraçısı" medalına, akademik Y.Məmmədəliyev adına medala və İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzinin qızıl medalına layiq görülmüşdür. "VEKTOR" - Beynəlxalq Elm Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "Azərbaycanın tanınmış alimləri" beynəlxalq layihəsinin qalibi olmuş və "XXI əsrin tanınmış alimi" beynəlxalq diplomu ilə təltif edilmişdir.

Azərbaycanda elmin, təhsilin inkişafında yüksək xidmətləri olan akademik Arif Paşayev 2004-cü il fevralın 15-də Vətənimizin daha bir yüksək mükafatına - "Şöhrət ordeni"nə layiq görülmüşdür.

Akademik Arif Paşayevin rəhbərliyi altında 10-larla aspirant və dissertant namizədlik dissertasiyası müdafiə etmişdir. O, eyni zamanda iki doktorluq dissertasiyasının məsləhətçisi, Rusiyada, Ukraynada, Latviyada, Estoniyada və Azərbaycanda müdafiə olunmuş bir çox doktorluq dissertasiyaları üzrə rəsmi opponent kimi çıxış etmişdir. Arif Paşayev 1971-ci ildən 1996-cı ilədək AMEA-nın Fizika İnstitutunun "Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları" laboratoriyasına rəhbərlik etmişdir. Bu müddət ərzində o, böyük elm təşkilatçısı olduğunu dəfələrlə sübuta yetirmiş, Fizika İnstitutunun elmi istiqamətlərinin müəyyənləşdirilməsində fəal iştirak etmişdir.

1996-cı ildən indiyədək "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektorudur. Akademik Arif Paşayevin həyatının böyük bir dövrü milli aviasiyanın təşəkkülü və inkişafı ilə bağlıdır. O, Milli Aviasiya Akademiyasına uğurla rəhbərlik edir.

Görkəmli akademik geniş elmi-praktiki, elmi-təşkilati, pedaqoji fəaliyyəti ilə yanaşı, Azərbaycanda aviasiya təhsilinin müasir səviyyədə inkişafına gərgin əmək sərf edən, gənc nəslin yüksək vətənpərvərlik ruhunda tərbiyəsini daim diqqətdə saxlayan qayğıkeş rəhbərdir. Müasirlərindən biri onun haqqında belə deyir: "Onun başqalarının uğurlarına sevinmə qabiliyyəti, qayğılarına şərik olma xüsusiyyəti göz qabağındadır. Arif Paşayevin çoxillik həyat təcrübəsi və cəmiyyətdə baş verən proseslərə məsuliyyətli münasibəti ziyalılıq üçün bir nümunədir". Onun rəhbərlik etdiyi təhsil ocağında tədris prosesi, elmi-metodiki işlər yüksək səviyyədə təşkil edilib, bir sıra kafedralar açılıb, yeni ixtisasların tədrisinə başlanılıb. Mülki aviasiyanı bütün istiqamətlər üzrə beynəlxalq tələblərə cavab verən milli kadrlarla təmin etməkdə Akademiya misilsiz rol oynayır. Onun rəhbərliyi ilə akademiyada tədris prosesi, elmi-metodiki işlər yüksək səviyyədə təşkil edilmişdir. Milli Aviasiya Akademiyasında rektor vəzifəsinə təyin edildiyi vaxtdan burada "İqtisadiyyat və hüquq", "Avianəqliyyat istehsalatı", "İxtisasartırma" kimi kafedra və yeni ixtisaslar açılmışdır. Burada ilk dəfə Azərbaycan dilində təhsilin aparılmasına başlanmışdır. Akademiyanın ərazisində yeni tədris korpusu, müasir tələblərə cavab verən idman kompleksi, tələbə yataqxanası, mehmanxana və s. binalar inşa edilmişdir.

Akademiyanın elmi fəaliyyəti buradakı dozimetrlərin, pilotsuz uçan aparatların, minaların axtarılması və zərərsizləşdirilməsi üzrə radioidarəolunan robotların, radiotexniki təminat obyektlərinin texniki vəziyyətinə avtomatlaşdırılmış nəzarət sistemlərinin yaradılmasına və s. yönəldilmişdir. Onun rəhbərliyi altında Milli Aviasiya Akademiyası Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya ali təhsil müəssisəsi" sertifikatına layiq görülmüş və Beynəlxalq Mülki Aviasiya Təşkilatının ali təhsil müəssisələrinin siyahısına daxil edilmişdir.

Bütün bu və ya digər elmi fəaliyyəti, nailiyyətləri ilə yanaşı Arif Paşayev yüksək vətəndaşlıq mövqeyi ilə də seçilmiş, insani keyfiyyətləri ilə böyük sevgi qazanmışdır. Zəngin ömür yaşayan ziyalı rektor, pedaqoq və alim kimi öz imzasını atıb. Bütün bunlarla yanaşı, Azərbaycan ictimai-siyasi həyatında sözü, rolu və fəaliyyəti olan ziyalılar da yetişdirib. O, bir ailə başçısı kimi, şəcərədən süzülüb gələn dəyərləri ailəsinə əxs edib. Azərbaycanın birinci xanımı, Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru Nərgiz Paşayeva.

"Atam akademik Arif Paşayev mənim üçün insanlıq, xeyirxahlıq və müdriklik idealıdır. Onun elm və təhsil sahəsindəki nailiyyətləri haqqında çox yazılıb", - deyə Mehriban Əliyeva bildirib: "Atamın insani keyfiyyətləri – onun tükənməz nikbinliyi, başqalarının dərdinə şərik olmaq, onları dəstəkləmək, hamı ilə dil tapmaq xüsusiyyəti, öz müsbət enerjisini ətrafındakı bütün insanlarla bölüşmək istedadı, müdrikliyi və sonsuz xeyirxahlığı mənim həyat amalımdır. O, uzun illərdir ki, Milli Aviasiya Akademiyasına rəhbərlik edir. Tələbələrlə rektor arasında qarşılıqlı hörmət, isti yoldaşlıq münasibətləri atamın yüksək şəxsi və peşəkar keyfiyyətlərinə daha bir sübutdur".

***Nəzakət ƏLƏDDİNQIZI***



# Ermənistan üçün itirilmiş illər

***Hələ Sovet imperiyası dövründə ermənilər Qarabağı ələ keçirmək xəyalları ilə hər əməlMə əl atırdılar və 35 il əvvəl, fevral ayının ortalarından başlayaraq Azərbaycanın ərazilərini mənimsəmək niyyəti ilə ilk mitinqlərini keçirirdilər. Mitinq keçirməkdə də ermənilərin məqsədləri həmin ərazilərin Kreml tərəfindən Azərbaycandan alınıb Ermənistana verilməsi idi. Əslində, Azərbaycan torpaqlarına elə bu məqsədlə soxuldular və ölkəmizdə olan xaosdan sui istifadə edən vandallar vəhşiliklə həmin əraziləri zəbt etmək şansından namərdliklə istifadə etdilər.***

Doğrudur, ermənilər öz vəhşilikləri, vandallıqları ilə bəşəri cinayətlərə əl atmıış və müvəqqəti də olsa öz niyyətlərinə guya nail oldular. Qarabağ ərazisində törətdikləri insanlığa sığmayan hərəkətləri ilə həmin ərazidə yaşayanları öz yurd-yuvalarından didərgin salmaq onların məqsədi idi və ərazilərin sahiblərini vəhşicəsinə qətlə yetirməklə, məcburi köçkün halına salmaqla buna da nail olduqlarını zənn etdilər. Həqiqətən də onların törətdikləri vəhşiliklərin sayı-hesabı yox idi və vəhşilikdə tayları da tapılmaz. Hətta Xocalı faciəsi kimi insanlıq dramı dünya miqyasında ən dəhşətli faciələrdən sayılır. Bəli, bu faciəni törədənlər əvvəllər öz əməlləri ilə lovğalanırdılar, saysız-hesabsız azərbaycanlını qətlə yetirdikləri ilə fəxr edirdilər, qürrələnirdilər, amma dərk etmirdilər ki, əvvəla özlərinin də öz məkrli niyyətlərinin qurbanına çevriləniəri var və bu say kifayət qədərdir, digər tərəfdən də bir zaman həmin torpaqlardan qaçmalı olacaqlarını düşünsəydilər dərk edərdilər ki, ən böyük itki onların üzünün olacaq. Bu itgi isə başqalarının torpaqlarına göz dikərək itirəcəkləri illər və bu illər ərzində əldən verdikləri olacaq.

Bir zamanlar Xocalıda törətdikləri vəhşiliklərə, vandallığa, insanlığa sığmayan hərəkətlərinə görə özlərini qəhrəman kimi aparanlar indi gizlənmək üçün siçan deşiyi axtarırlar. Əvvəla ona görə ki, onların öz əməllərinə görə cavab verəcəyi günün yaxınlaşdığını bilirlər. Bilirlər ki, bu əməllərinə görə onlar Azərbaycan xalqı və dövləti qarşısında tezliklə cavab verməli olacaqlar, baxmayaraq ki, 44 günlük müharibə zamanı işğalçılardan mükəmməl şəkildə, özü də yetərincə qisas alındı. Digər tərəfdən də axı indi erməni xalqı başa düşür ki, onların dırnaqarası "qəhramanlarının" lovğalanaraq etdikləri əslində öz başlarına açdıqları bəla imiş. Ermənilər indi başa düşürlər ki, bu illər ərzində özləri-özlərini, yaxud həmin o vandallıqları ilə lovğalananlar onları aldadıblar. Çünki nə zamansa qaçıb tərk edəcəkləri torpaqlara görə bu illər ərzində başları az bəlalar çəkməyib və məhrum olmadıqları qalmayıb. Özü də sonda bəlli oldu ki, əbəs yerə. Elə isə bu illər hara getdi? Belə məlum oldu ki, ermənilər üçün itmiş illər oldu.

Qarabağı işğal etməklə, Ermənistan tərəfi udmağı bacarmadığı və ümumiyyətlə, bacarmayacağı bir tikəni sadəcə olaraq dişləmiş oldu, hansı ki, bu ona çox baha başa gələcəkdi və gəldi də. İşğalçılıq siyasəti Ermənistanı istər iqtisadi, istərsə də siyasi fiaskoya məruz qoydu və bu ölkə, öz tarixində rüsvayçılıq, rəzalət kimi qalan bir ləkə ilə, biabırçı məğlubiyyətlə üzləşməli oldu. Bütün bunları əvvəlcədən dərk etməmək, öz qudurğan, xain xislətinə, ənənəsinə müvafiq hərəkət etmək, qonşu dövlətlərə məxsus torpaqlara göz dikmək, mənimsəmək arzusuna tabe olmaq erməniləri 2020-ci il fəlakətinə










aparmalı idi və apardı da. İndi gec də olsa, erməni əsilli siyasətçilərin, ziyalıların bir qismi etiraf edir ki, bu axmaq niyyətləri, işğalçılıq siyasəti, başqasına məxsus olanı ələ keçirmək niyyətləri onlar üçün tarixin zibilliyinə atılacaq 35 ilin itirilməsi bahasına başa gəldi.

Azərbaycan xalqı, Azərbaycan dövləti itirmədi, qisasını da aldı torpaqlarını da geri qaytardı, ərazilərini də işğaldan azad etdi. Bunun üçün, bu məqsədlə ölkəmiz öz qüdrətini artırdı, qüdrətli dövlətə çevrildi. Azərbaycan nəhəng layihələrə imza atdı, iqtisadi inkişafa nail oldu, beynəlxalq miqyasda nüfuz qazandı, ordu quruculuğu sahəsində nailiyyətlər əldə etdi və bu gün artıq çox güclü bir dövlət olaraq qəbul edilməkdədir. Üstəlik, bütün bu nailiyyətləri ölkəmizin suverenliyinin daha da möhkəmləndirilməsi üçün əvəzsiz sayılır və Azərbaycan artıq nəinki bölgədə, bütün dünyada söz sahibinə çevrilib. Xüsusilə, hazırda dünyada, ələlxüsus Avropada enerji böhranı fonunda ölkəmiz enerji resurslarına görə çox böyük diqqət mərkəzindədir və son zamanlar Azərbaycana, Azərbaycanla əlaqələrin, münasibətlərin daha da yaxşılaşdırılmasına dünya ölkələrinin marağı göz önündədir. Bu isə o deməkdir ki, ölkəmizi bundan sonra da dinamik inkişaf gözləyir və hələ daha böyük perspektivlərimiz var. Azərbaycanın iqtisadi cəhətdən inkişafı əhalinin sosial rifahının günü-gündən yaxşılaşdırılması üçün əsaslı zəmin yaradır. Ölkə vətəndaşları üçün həm sabitlik, stabillik, firavanlıq təmin olunub, həm də əhalinin yaxşı yaşayışı üçün təminat var. Ölkəmizdə məhz Ermənistanda olduğu kimi nə hərcmərclik, nə xaos, nə də səfalət hökm sürür. Azərbaycan vətəndaşının sosial rifahı durmadan yaxşılaşır, ölkəmiz davamlı şəkildə inkişaf edir, abadlaşır. Xüsusilə də işğaldan azad edilən ərazilərimizdə görülən abadlı-quruculuq işləri sayəsində Azərbaycan torpaqları cənnətə çevrilir. Zəfər günün artıq iki ildir ki, böyük qürur və coşqu ilə qeyd edən Azərbaycan xalqı isə qalib xalqdır.

Ermənistanın bu illər ərzində qazandığı nə oldu? Bu ölkə nə torpaq qazandı, nə inkişaf əldə etdi, nə də erməni xalqı səfalətdən yaxa qurtara bilmədi. Bəs işğal etdikləri torpaqlarda niyə yaşamağa davam etmirlər? Şuşada şərab içib, sərxoş olub dingildəyən, atılıb-düşən erməni baş nazir Nikol Paşinyan niyə indi bu şəhəri yuxusunda da görə bilmir? Qarabağın dilbər guşələrində özlərini həmin yerlərin sahibləri kimi aparanlar niyə indi oralarda gəzib-dolaşmırlar? Düz 35 il bundan əvvələ qədər onlara bir söz deyilmirdi, firavan şəkildə həmin ərazilərdə yaşayırdılar. Nə düşmüşdü ki, yaxalarını cırıb torpaq iddiası ilə ortaya atıldılar? Nə qazandılar bununla? Ümumiyyətlə, qandılar, yoxsa itirdilər? Əlbəttə ki, itirdilər. Azərbaycanda hələ Sovet dönəmində belə gördükləri kefli günləri, firavan həyatlarını itirdilər, əllərində olanı əldən verdilər. Öz çirkin niyyətlərinə görə hər şeyləri əllərindən çıxdı. İnkişafdan bütövlükdə Ermənistan geri qaldı. Bu işğalçı ölkə elə məhz işğalçılıq siyasəti sayəsində bölgədə bütün nəhəng layihələrdən məhrum oldu, geriləməkdə davam etdi və indi də borc içərisində boğulur. Əhalisinin səfalət içərisində inləməsi azmış kimi, üstəlik daxilində hərcmərclik, xaos da hökm sürür. Ermənistan adlı ölkə daxili məsələlərini belə özü həll edə bilmir, hansısa ölkələrdən asılı vəziyyətdə olduğuna görə qərarları da onlardan alır. Deməli, Ermənistan artıq özünü süveren ölkə kimi tanınmır. Hələ bu gedişlə həmin ölkənin daha dəhşətli, daha qorxunc günlərinin qarşıda olduğu zərrə qədər şübhə doğurmur. Elə isə, geridə qalan və işğalçılıq siyasətinə sərf etdikləri 35 ilin bu ölkəyə nə verdiyi sualına ermənilər özləri nə qədər cavab axtarsalar da tapa bilməzlər. Ona görə ki, həmin illərin bu ölkəyə verdiyi bir şey qoxdur, səfalətdən, məğlubiyyətdən, rəzalətdən, rüsvayçılıqdan, ümumiyyətlə, bütün sahələrdə geriləmədən savayı. Bu illər onlar üçün ən azından itirilmiş illər hesab oluna bilər, çünki Ermənistan yalnız itirmiş oldu, qazanmış yox.

***İnam Hacıyev***

# Azərbaycan – İtaliya: tərəfdaşlıq üçün yeni hədəflər!

*Azərbaycan üçün mühüm tərəfdaşlardan birinə çevrilən İtaliya ilə ölkəmiz arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğu dostluq münasibətlərini şərtləndirən amildir. Mükəmməl hüquqi bazaya malik ikitərəfli münasibətlər çoxşaxəlidir. Əlbəttə ki, ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəldib. Səfərlər çərçivəsində bir çox razılaşmalar və strateji tərəfdaşlıq haqqında mühüm sənədlər imzalanıb.*

”İtaliya bizim strateji tərəfdaşımızdır. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksək səviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Bu ilin yanvar ayından başlayaraq İtaliyanın yeni hökumətinin üç naziri artıq Azərbaycana səfərlər etmişlər – müdafiə naziri, energetika naziri və bu gün şirkətlər və ”Made in Italy” naziri. Cəmi bir ay ərzində, - yəni, birinci səfər yanvarın 11-də olmuşdur, - yeni hökumətin 3 naziri Azərbaycanda səfərdə olub. Bu, bizim əlaqələrimizin doğrudan da nə qədər yüksək səviyyədə olmasından xəbər verir.” Bu fikirləri fevralın 13-də Bakıda ”Gülüstan” sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilərkən Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxışı zamanı bildirib. Qeyd edək ki, Mingəçevir şəhərində yeni 1280 meqavat gücündə elektrik stansiyasının açılışı 2025-ci ildə baş tutacaq. Cənab Prezident bunun çox əlamətdar hadisə olduğunu bildirərək ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcəyini, eyni zamanda, Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracağını diqqətə çəkib: ”Onsuz da Mingəçevir hazırda elektroenergetika sahəsində bizim əsas şəhərimizdir. Mingəçevirdə fəaliyyət göstərən elektrik stansiyası bu gün ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir”.

Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Mingəçevir şəhərində tikilən ”Azərbaycan” İstilik Elektrik Stansiyasının (İES) birinci bloku 1981-ci ildə istismara verilib. Bu stansiya sovet dövründə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılırdı. Məhz bu elektrik stansiyası 1990-cı illərin əvvəlində Sovet İttifaqının dağılması ərəfəsində müstəqil Azərbaycanın enerji tələbatının böyük hissəsini ödəyirdi. Lakin keçid dövründə elektrik stansiyasına baxımsız yanaşma və istismar müddətinin başa çatması əlavə problemlər ortaya çıxarırdı. Buna görə də Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, hər birinin gücü 300 meqavat olan 8 bloklu ”Azərbaycan” İstilik Elektrik Stansiyası 2020-ci ildə tam yenidən qurularaq istismara verilib. Bununla da stansiya dayanmaq təhlükəsindən xilas edilib, ömrü ən azı 20 il uzadılıb, etibarlılıq, dayanıqlılıq, səmərəlilik və təhlükəsizlik təmin edilib, 620 MVt-dan artıq ”itirilmiş” güc bərpa olunub.

Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı Sərəncama uyğun olaraq, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılan Mingəçevirdəki ”Azərbaycan” İES-in ərazisində ”Azərenerji” tərəfindən əlavə 1280 meqavat istehsal gücündə yeni elektrik stansiyası yaradılır. Stansiyanın Azərbaycanın daxili resursları çərçivəsində inşa ediləcəyini bildirən Cənab Prezident qeyd edib ki, stansiyanın ümumi dəyəri təqribən 400 milyon dollara qədər olacaq və elektroenergetika sahəsini yaxından bilən insanlar bilirlər ki, təxminən 1300 meqavat gücündə olan stansiya neçəyə başa gələ bilər: ”Yəni, bu stansiyaya sərf ediləcək vəsait bir qayda olaraq, bu böyüklükdə stansiyaların tikintisinə sərf olunan vəsaitdən 3-4 dəfə aşağıdır. Bunun da səbəbi, əlbəttə ki, səmərəlilikdir. Eyni zamanda, bunun səbəbi odur ki, Mingəçevirdə artıq güclü elektroenergetika infrastrukturu yaradılmışdır və bu stansiyanın məhz Mingəçevirdə inşa edilməsi də, ilk növbədə, bu məqsədi güdür. Ona görə biz az vəsaitlə böyük enerji potensialına malik oluruq. Eyni zamanda, ödəniləcək vəsaitin 60 faizi ”Azərenerji”nin öz vəsaiti hesabına təmin ediləcək”. Bunun hərtərəfli uğurlu bir layihə olduğunu bildirən dövlət başçısı hazırda dünyada, Avropada, o cümlədən Azərbaycanda bərpaolunan enerjiyə daha böyük üstünlük verildiyini diqqətə çəkərək Azərbaycanın da bu sahədə böyük uğurlara artıq imza atdığını bildirib: ”Buna baxmayaraq, ənənəvi resursların, ənənəvi stansiyaların da faydası göz önündədir”.

Ölkəmizdə bərpaolunan enerji növlərinin inkişafına böyük potensial var. Hazırda iki stansiyanın inşa edildiyini bildirən Cənab Prezident onların 470 meqavatlıq günəş və külək enerjisi olduğunu diqqətə çatdırıb: ”Üçüncü stansiyanın inşası yaxın vaxtlarda başlayacaq, o da bizə təqribən 240 meqavat əlavə güc verəcək. Hazırda xarici investorlarla imzalanmış sənədlər əsasında 25 qiqavata qədər günəş və külək elektrik enerjisi stansiyalarının inşası nəzərdə tutulur- böyük hissəsi Xəzər dənizində, bir neçəsi isə quru sahələrdə. Yəni, bu, doğrudan da çox böyük potensialdır və təkcə Xəzər dənizinin külək enerjisi potensialı 157 qiqavata bərabərdir”.



*İlham Əliyev: "İtaliya-Azərbaycan əlaqələri təkcə iki ölkənin maraqlarını təmin etmir, böyük coğrafiyanın maraqlarını təmin edir"*

## ”AZƏRBAYCAN İTALİYANI NEFTLƏ TƏCHİZ EDƏN BİR NÖMRƏLİ ÖLKƏDİR”

Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya 2020-ci ildə rəsmi səfəri zamanı dövlətlərarası strateji tərəfdaşlığa dair sənəd imzalanmışdır.

Ötən ilin 1-2 sentyabr tarixlərində Azərbaycan Prezidentinin İtaliyaya rəsmi səfəri ölkələr arasında tərəfdaşlığın göstəricilərindədir. Səfər çərçivəsində ölkələrimiz arasında sıx əməkdaşlıq və strateji tərəfdaşlıq ilə bağlı geniş məsələləri müzakirə olunub. İki ölkə arasında strateji iqtisadi tərəfdaşlıq, ilk növbədə, enerji sektorunu əhatə edir. Azərbaycan İtaliyanın əsas xam neft, təbii qaz təchizatçılarından biridir. İtaliyanın Çernobbio şəhərində ”The European House – Ambrosetti” beyin mərkəzi tərəfindən ”Dünya, Avropa və İtaliyaya baxış” və ”Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi” mövzusunda keçirilən 48-ci Beynəlxalq Çernobbio Forumunun plenar iclasında ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxış edən Cənab İlham Əliyevin bildirmişdi ki, uzun illərdir ki, Azərbaycan İtaliyanı neftlə təchiz edən bir nömrəli ölkədir. Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan Trans-Adriatik təbii qaz boru kəməri (TAP) layihəsi İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən, eyni zamanda, İtaliyanın qaz bazarında qiymətlərin sabit saxlanılmasında üstünlükləri təmin edən vacib amildir. ”2020-ci ilin son günü – dekabrın 31-də həmin mühüm layihənin yekun hissəsi olan TAP istifadəyə verildi” – deyə Prezident bildirmişdi.

Qeyd edək ki, Cənub Qaz Dəhlizi Azərbaycan və İtaliyanın enerji sahəsində tərəfdaşlığına zəmindir. Cənub Qaz dəhlizi müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Onu da qeyd edək ki, İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də, neft sənayesinin inkişafına təkan verir.

1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilərkən Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan neftinin böyük hissəsi İtaliya bazarına çatdırılır və iki ildən artıqdır ki, Azərbaycan qazı İtaliya bazarına çatdırılır: ”TAP layihəsi bizim birgə uğurumuzdur. Cənub Qaz Dəhlizinin başlanğıcı Azərbaycanın Xəzər dənizindəki sektorudursa, bunun son məntəqəsi İtaliyadır və yol boyunca bir neçə ölkə Azərbaycan qazından faydalanır. O cümlədən Avropanın yeni ehtiyaclarını nəzərə alaraq və keçən il Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış sənədə əsasən, biz Avropa məkanına təbii qazın həcminin artırılmasını təmin edəcəyik. Əlbəttə ki, burada TAP layihəsinin iki dəfəyədək genişləndirilməsi məsələsi gündəlikdədir. Bu məsələ artıq bir müddətdir ki, müzakirə edilir, o cümlədən bu ayın əvvəlində Bakıda keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasında geniş müzakirə edilmişdir”.

Cənub Qaz Dəhlizi Azərbaycan və İtaliyanın enerji sahəsində tərəfdaşlığına zəmindir. Cənub Qaz dəhlizi müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Onu da qeyd edək ki, İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də, neft sənayesinin inkişafına təkan verir.

## ”İTALİYA ŞİRKƏTLƏRİNİN GÖRDÜYÜ İŞLƏR MİQYASINA GÖRƏ TÜRKİYƏ ŞİRKƏTLƏRİNDƏN SONRA İKİNCİ YERDƏDİR”

İtaliyanın 100-dən çox şirkəti hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə Azərbaycanda italyanlar fəaliyyət göstərir.

İşğaldan azad olunan bölgələrdə aparılan infrastruktur layihələrin həyata keçirilməsində İtaliya dost ölkə olaraq öz töhfəsini verir. Belə ki, İtaliya şirkətləri işğaldan azad olunmuş Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib. İtaliyanın daha bir şirkəti Şuşada yeni məscidin layihəsini dizayn edib və onu icra edəcək. Görülən işlər və layihələr bu əlaqələrin davamlılığının təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən ilin sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın ”İl Sole 24 Ore” qəzetinin müxbirinə verdiyi müsahibəsində bildirdiyi kimi, ”İtaliya şirkətləri işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərirlər: Türkiyə şirkətlərinin birinci yerdə olması təbiidir. Çünki Türkiyə bizim müttəfiqimiz, yaxın dostumuz və qonşumuzdur. Onların məşhur tikinti şirkətləri var. İkinci yerdə isə İtaliya şirkətləridir. Mən sizə misal göstərə bilərəm. Məsələn, bizim Memorial və Zəfər muzeylərimiz təkcə Bakıda deyil, işğaldan azad olunmuş şəhərlərdə də İtaliya şirkətləri tərəfindən dizayn olunub və tikiləcək. İtaliya şirkətləri işğaldan azad olunmuş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib.”

İtaliyanın daha bir şirkəti Azərbaycanın xahişi ilə Şuşada yeni məscidin layihəsini dizayn edib. ”Şuşada tikiləcək yeni məscidin layihəsi İtaliya şirkətinə həvalə olunub. Bu, o deməkdir ki, bizim aramızda çox yüksək dərəcədə etimad var və bu addımı atmışıq. Bizim böyük planlarımız da var. Məsələn, bərpaolunan - külək, günəş və su elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini dəvət etmək üçün böyük planlarımız var, - deyə Prezident müsahibəsində diqqətə çatdırmışdır. İtaliya şirkətlərinin Azərbaycan tərəfindən maliyyələşdirilən və Azərbaycanda İtaliya şirkətlərinin icra etdiyi müqavilələrin dəyəri milyard dollardan çoxdur.

## MÜŞTƏRƏK LAYİHƏLƏR - DOSTLUQ VƏ ƏMƏKDAŞLIĞIN DAVAMI

Azərbaycan İtaliya ilə iqtisadi əlaqələrinə böyük diqqət yetirir və onların inkişafında və güclənməsində maraqlıdır. İki ölkənin təhsil müəssisələri arasında da əlaqələr genişlənir. Əbəs deyil ki, bu gün İtaliyanın müxtəlif universitetlərində mindən çox azərbaycanlı tələbə təhsil alır. Ölkələrimiz arasında eyni zamanda, mədəniyyət, elm, təhsil, humanitar sahələrdə önəmli mübadilələrin və layihələrin həyata keçirilməsi Azərbaycan və İtaliya arasında salınan körpünün daha da möhkəmləndirir. ”İtaliya-Azərbaycan əlaqələri təkcə iki ölkənin maraqlarını təmin etmir, böyük coğrafiyanın maraqlarını təmin edir”-deyən Prezident bildirib ki, bizim əməkdaşlığımız təkcə energetika sahəsi ilə məhdudlaşmır: ”Hazırda Bakıda Azərbaycan-İtaliya Universitetinin yeni binası inşa edilir. Azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərində İtaliya şirkətləri çox fəal iştirak edirlər - dini abidələrin bərpası və tikintisi, qələbə muzeylərinin tikintisi və dizaynı. Yəni, bu, doğrudan da çox strateji tərəfdaşlıqdır və əlbəttə ki, bugünkü mərasim bunu bir daha göstərir”.

Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan beynəlxalq əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir.

**Zümrüd BAYRAMOVA**

# Heydər Əliyev-100



# Heydər Əliyev və Azərbaycan Gəncliyi

Kənan Kərimov
YAP Gənclər Birliyinin üzvü

***Azərbaycan gəncləri dünyanın ən xoşbəxt gənclərindən biridir. Çünkü 30 illik həsrətdən sonra torpaqlarımızın işğaldan azad olunması bunu deməyə əsas verir. Bu gün müasir güclü və qüdrətli Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir və buna hamımız şahidik. Qalib Azərbaycannın Qalib gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.***

Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ulu öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ulu Öndərin respublikaya rəhbərliyinin bütün dövrlərində sağlam, normal gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət edirdi. Heydər Əliyevin dövlətimizə verdiyi xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdi. 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradılıb. 1995-ci ildə isə o, Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürüb. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib və ulu öndər tədbirdə şəxsən iştirak edib.1 fevral 1997-ci il tarixdə forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən ulu öndər "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Bizlərə miras qalmış məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, malik gənclər formalaşır. Azərbaycan gəncləri gündəngünə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Bu günkü dövrdə Azərbaycanda mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz bugünkü gündə dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Bu gün güclü bir gənclik ordusu formalaşıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir. Prezident İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm veilməsinin növbəti sübutudur. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, cənab Prezidentin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Çünki Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdırlar. Əminliklə demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların dövlətin və cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün vacib tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaq.

# Siyəzəndə gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi, yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il fevralın 15-də YAP Siyəzən rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra Heydər Əliyev Mərkəzinin konfrans zalında Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda YAP sıralarına yeni qoşulmuş gənclərə partiyaya üzvlük vəsiqələri təqdim olunub.





# Münhen qələbəsindən 9 ay sonra: diplomatik "nokaut"dan kapitulyasiya aktına...

***Azərbaycanın öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməsi həm də dərin strateji diplomatiya siyasətinin məntiqi nəticəsidir. Azərbaycan bütün cəbhələrdə – istər döyüş meydanında, istər siyasi-diplomatik müstəvidə, istərsə də informasiya cəbhəsində mütləq qalibiyyət əldə etməklə torpaqlarımızın işğaldan azad olunmasına müvəffəq oldu.***



Azərbaycan Prezidenti müxtəlif beynəlxalq tribunalardan səmərəli istifadə etməklə erməni yalanlarını ifşa etdi, reallıqları dünya ictimaiyyətinin diqqətinə sistemli şəkildə və dolğun surətdə çatdırdı. Bu səpkidə 3 il öncə bu gün – 15 fevral 2020-ci il tarixində baş tutmuş Münhen Təhlükəsizlik Konfransında əldə edilən növbəti diplomatik qələbənin əhəmiyyətini ayrıca qeyd etmək lazımdır.

Münhen qələbəsi Azərbaycanın hücum diplomatiyasının mühüm tərkib hissəsi və real nəticəsidir, ölkəmizi Zəfərə aparan diplomatik-strateji nailiyyətlərdən biridir.

Sözügedən konfrans zamanı Prezident İlham Əliyev Azərbaycanın prinsipial mövqeyini, tarixi faktları və reallıqları qətiyyətlə ifadə etdi. Cənab İlham Əliyev Qarabağın Azərbaycan ərazisi olduğunu həm tarixi, həm beynəlxalq hüquq müstəvisində, həm də beynəlxalq birliyin mövqeyi fonunda dünya ictimaiyyətinə çatdırdı. Azərbaycan Prezidentinin Qarabağın Azərbaycana məxsus olması və münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyinə dair ifadə etdiyi siyasi-hüquqi gerçəkliklərin qarşısında Paşinyan tutarlı heç bir fikir səsləndirə bilmədi, hüquqi cəhətdən əsaslandırılmış fakt ortaya qoymadı. Beləliklə, Paşinyan Prezident İlham Əliyev tərəfindən səsləndirilən tarixi həqiqətlər və təqdim edilən faktlar qarşısında aciz durumda qaldı, onun absurd iddiaları dövlətimizin başçısı tərəfindən darmadağın edildi.

2020-ci ildə beynəlxalq hüquq normalarına əsaslanaraq əks-hücum əməliyyatlarını uğurla həyata keçirən müasir və qüdrətli Azərbaycan Ordusunun tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi sözügedən diplomatik qələbənin döyüş meydanında həlledici davamı oldu. 2020-ci ildə Münhendə Azərbaycan Prezidenti qarşısında aciz duruma düşən Paşinyan bu dəfə 44 günlük müharibənin nəticəsi olaraq kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Beləliklə, sarsılmaz zərbələr alaraq acınacaqlı vəziyyətə düşən Ermənistan Azərbaycanın qarşısında diz çökdü, dövlətimiz öz milli güc resursları ilə münaqişənin hərbi-siyasi yolla həllinə müvəffəq oldu.

Münhen qələbəsi Azərbaycan Prezidentinin intellektual və vətənpərvər şəxsiyyət, rasional – dəmir məntiqə malik və praqmatik siyasətçi olduğunu bir daha təsdiqlədi. Bu, həm də Azərbaycan dövlətinin gücünün – qüdrətinin ifadəsi idi!

# Mehriban Əliyevanın göstərişi ilə daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb





***Türkiyədə zəlzələdən zərər çəkənlərə dəstək məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə daha bir humanitar yardım göndərilib. AZƏRTAC xəbər verir ki, bu gün zəlzələ bölgəsinə uçan təyyarədə çadırlar və qızdırıcılar daxil olmaqla ümumilikdə 40 ton yardım yola salınıb.***

Xatırladaq ki, Heydər Əliyev Fondu faciənin ilk günündən qardaş ölkəyə öz dəstəyini göstərib. Birinci xanım Mehriban Əliyevanın göstərişi ilə bundan əvvəl fevralın 9-da və 11-də faciədən zərər çəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, həmçinin axtarış-xilasetmə işlərinə dəstək məqsədi ilə ləvazimat və avadanlıqlar göndərilib.

Eyni zamanda, xatırladaq ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə vətəndaşlardan toplanan isti geyim və avadanlıqlar da artıq Türkiyəyə yola salınıb.





# "Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır, dönməzdir"

"Azərbaycan və Türkiyə arasındakı münasibətlər tək iki ölkə arasındakı əlaqələr yox, həm də iki qardaş xalq arasındakı sarsılmaz bağlar kimi xarakterizə edilməlidir. Müstəqilliyimizin ilk illərindən etibarən hər iki ölkə qarşılıqlı şəkildə ictimai-siyasi həyatlarında baş verən ən önəmli hadisələrə ilk reaksiya verən, dəstək nümayiş etdirən dövlət olur. Budəfəki zəlzələ də istisna deyil". Bunu "Səs" qəzetinə açıqlamasında "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.



Onun sözlərinə görə, minlərlə insanın həyatına son qoyan, bütöv şəhərləri yer üzündən silən bu dəhşətli faciə ilə bağlı Türkiyə dövlətinin, xalqının ilk harayına yetişən də Azərbaycan oldu: "Artıq zəlzələnin ilk saatlarından etibarən Prezident İlham Əliyevin göstərişi ilə yüzlərlə Azərbaycan xilasedicisi qardaş ölkəyə yola salındı. Xilasetmə əməliyyatlarına başladı. Növbəti günlərdə isə sıravi vətəndaşlardan tutmuş, ictimai-siyasi təşkilatlara, müxtəlif dövlət qurumlarına qədər hər kəs faciədən zərər çəkən türk xalqına əlindən gələn yardımı etməyə başladı. Yardım kampaniyası bu gün də davam edir. Necə ki, Vətən müharibəsində Türkiyə həm dövlət, həm xalq olaraq Azərbaycanın yanında idi, bu gün də qardaş ölkənin ağır zamanlarda Azərbaycan rəhbərliyi, xalqı da bir nəfər kimi Türkiyənin yanındadır. Əgər açıqlanan siyahılara nəzər salsaq görərik ki, zəlzələ bölgəsində xilasetmə qrupları göndərən ölkələr arasında da həm vaxt, həm say etibarı ilə Azərbaycan birinci yerdədir. Bundan əvvəl baş vermiş meşə yanğınları, Ərzurum zəlzələsi və daha neçə-neçə faciəvi olaylarda Türkiyənin yarasını sarımağa necə yardım etdiksə, budəfəki faciənin nəticələrinin aradan qaldırılmasında da eyni yanaşma ortaya qoyuruq. Bütün bunlar dünyaya bir daha göstərdi ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır, dönməzdir".

***Gülyanə***

# Heydər Əliyev-100



# "Millətin milliliyini saxlayan onun dilidir"

## Bu aforizm Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinə sevgisinin ifadəsidir

Dil hər bir xalqın milli kimliyinin daşıyıcısıdır. Onu qorumaq, yaşatmaq, əslində, xalqın özünün qorumaq, yaşatmaq, özünü təsdiq etməsidir. Hər bir xalqın mövcudluğu onun dili ilə ölçülür. K.Uşinski demişdir: "Bir millətin, xalqın varını, dövlətini əlindən alsan, o millət ölməz, yaşayar. Ancaq ana dilini əlindən alsan, həmin millət məhv olar". "Özümüzün adı var - Azərbaycan.

Özümüzün dili var - Azərbaycan dili və çox da gözəl dilimiz var. Çox belə ləzzətli dilimiz var. Mənim üçün Azərbaycan dili hər şeydən əzizdir. Millətin milliliyini saxlayan onun dilidir".

Bu fikirlər dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyevə məxsusdur və bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Bu il Ümummilli Lider Heydər Əliyevin anadan olmasından 100 il keçir. Bu ilin may ayı bir özgə biçimdə gələcək. Buna xalqımız və dövlətimiz ciddi hazırlaşır. Bu yubiley Dünya azərbaycanlılarının da xüsusi hazırlaşdığı bir bayramdır. Prezident İlham Əliyev də Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Sərəncam imzalamışdır.

Ümummilli Liderimiz Heydər Əliyev Ana dilimizin dəyərinə çox böyük əhəmiyyət verirdi. İstər sovet dövründə, istərsə də müstəqillik dövrümüzdə dilimizin yaşaması üçün əlindən gələn bütün imkanlardan istifadə edirdi.

Hamımıza məlumdur ki, Sovet dövründə Azərbaycan dili müxtəlif təzyiqlərə məruz qalmışdır. Bu Azərbaycan ziyalılarını həmişə düşündürmüşdür. Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə məşhur "Mənim anam" şeirində göstərir ki, dil şairdən ötrü təkcə danışmaq üçün vasitə deyil, həm də bu dildə özünü ifadəetmə, sənətə vaqif olmaq və sənət nümunələri yaratmaq vasitəsidir. Şairin özünün dediyi kimi:

Mən bu dildə hiss etmişəm
Həm sevinci, həm də qəmi,
Bu dil ilə yaratmışam
Hər şeirimi, hər nəğməmi.

Həmçinin, həmişə öz uzaqgörənliyi ilə fərqlənən ümummilli liderimiz dilin əhəmiyyətini həmişə gözəl qiymətləndirib, Azərbaycan dilinin genişləndirilməsi üçün mühüm addımlar atıb. Bu addımlar içərisində ən əhəmiyyətlisi 1978-ci ilə konstitusiyaya



**Pərvanə İsmayılova
Sənaye və texnologiya kollecinin direktor müavini, qabaqcıl təhsil işçisi**

Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi idi. Bu mühüm qərardan sonra Azərbaycan dilinin istifadəsində və inkişafında yeni mərhələ başladı. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilinin zənginliyinin sübutudur. Bu mənada dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir.

Ulu öndər hakimiyyətə gəldiyi ilk gündən Azərbaycan dilinin inkişafı və tərəqqisi üçün çox mühüm işlər gördü. Bunlardan ən başlıcası bir dövlət xadimi kimi bütün dövlət tədbirlərində, rəsmi yığıncaqlarda Azərbaycan dilində danışması idi. Bu bütün Sovetlər birliyi üçün bir nümunə idi. Ona edilən təzyiqlərə baxmayaraq ulu öndər Azərbaycan dilinin gözəlliyini, zənginliyini öz natiqlik istedadı ilə bütün dünyaya sərgilədi. Ulu öndər ümumrespublika tədbirlərində azərbaycanca danışmaqdan çəkinmirdi, neçə illər ərzində küncə sıxışdırılan dilimizin sabahına işıq salır, cəsarəti, şəxsi nümunəsi ilə milyonlarla insanın ürəyindən keçənlərin ifadəçisinə çevrilir, haqq sözü deyir, dilimizin ən ali mərtəbəyə layiq olduğunu bəyan edirdi. O zaman üçün adət olunmamış şəkildə dövlət tədbirlərində Azərbaycan dilində danışmaq, Azərbaycan dilinə aid əsərlərə xüsusi diqqət etməklə və onların dövlət mükafatı almasını təmin etmək, Azərbaycan dilli ədəbiyyatı yaradan böyük şəxsiyyətlərə, yazıçılara xüsusi dövlət mükafatının verilməsi üçün mübarizə aparırdı. Bu dövrdə ədəbiyyatımızın inkişafında, həm dilimizin tədrisi məsələlərində, həm də Azərbaycan dilinin ümumtürk dillərin kontekstində araşdırılması sahəsində çox böyük uğurlar qazanılmış oldu.

Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi ilə bağlı qərarı və bu yubileydəki çıxışı xüsusi qeyd olunmalıdır. 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illiyinə həsr olunmuş iclasında ulu öndər bu hadisəni belə qiymətləndirirdi: "Xatirimdədir, universitetin 50 illik yubileyində mən çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. O vaxt bu böyük sensasiya kimi qəbul olundu. Təəccüb doğurdu ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və heç də Azərbaycan dilində pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik etdilər. Dilini sevən, milli ruhla yaşayanlar bunu doğurdan, böyük hadisə kimi qəbul etdilər. Ancaq mən isə onlara dedim ki, qeyri - adi heçnə yoxdur. Bu mənim ana dilimdir və ana dilində çıxış etmək böyük qəhrəmanlıq deyil. Ana dilini bilməmək, onu qiymətləndirməmək, şübhəsiz, xalqın qarşısında qəbahətdir".

Heydər Əliyevin bu cəsarətli addımı Azərbaycan ziyalılarında ruh yüksəkliyi yaratdı. Heydər Əliyev sənət adamlarının, yazıçı və şairlərin böyük dostu idi. 60-cı illərdə "Gülüstan" poemasına görə Bəxtiyar Vahabzadəni siyasi təqiblərdən qoruması, Xəlil Rza Ulutürkə, Məmməd Araza, digər Azərbaycan yazıçılarına, qayğı göstərməsi, neçə-neçə ustad sənətkarlarımıza SSRİ-nin ən böyük mükafatlarını, fəxri adlarını təqdim etməsi əslində ilk növbədə Azərbaycan dilinə, Azərbaycan ədəbiyyatına göstərilən böyük qayğının parlaq təzahürü idi.

Dövlətçiliyin əsas atributlarından biri kimi dil xalqın milli varlığı, milli sərvətidir. Torpaq, bayraq qədər müqəddəs olan dilin müstəqil inkişafı, zənginləşməsi və nüfuzu bilavasitə dövlətçiliklə bağlıdır. Bu amillər qloballaşma dövrü olan müasir dövrümüzdə dövlət dilinin istifadəsinə və inkişafına yüksək həssaslıq və diqqətlə yanaşmağı tələb edir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin bütün fəaliyyəti dövründə ana dilinə, dövlət dilinə sevgi mühüm yer tutub. "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir"- deyən dahi rəhbərin fəaliyyətinin birinci mərhələsində, dəqiq desək 1978-ci ildə - sovet ideologiyası şəraitində Azərbaycan dilinin konstitusiyaya dövlət dili kimi daxil edilməsi zamanına görə əsl qəhrəmanlıq və uzaqgörənlik mümunəsi idi.

Azərbaycanın milli müstəqilliyini elan etdiyi 1991-ci ildən sonra isə dövlət dil siyasəti xüsusi keyfiyyət qazandı. Müstəqil dövlətin iradəsini ifadə edən bu siyasəti Azərbaycan xalqının Ümummilli lideri həyata keçirdi. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə respublika hərcmərclik mərhələsindən çıxıb həqiqi müstəqillik yoluna qədəm qoydu. Ümummilli liderin Azərbaycan Respublikasına rəhbərliyinin müstəqillik dövrünü əhatə edən ikinci mərhələsində - 2001-ci ildə imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı ilə yeni tarixi mərhələdə dövlət dili siyasətinin miqyası daha da genişləndi.

Ümumiyyətlə, bu dövrdə Heydər Əliyevin təşəbbüsü ilə ədəbi dilimiz sözün əsl mənasında yüksək status qazandı, dövlət dili haqqında qanun qəbul olundu, latın qrafikası bərpa edildi. 2001-ci ilin 9 avqustunda imzalanan möhtəşəm bir fərmanla 1 avqust tarixi ölkəmizdə Ana dili və əlifba günü elan olundu. Azərbaycan əlifbası və ana dili gününün təsis edilməsi ulu öndər Heydər Əliyevin 1969-cu ildən başladığı milli dil siyasətinin, 1993-cü ildən etibarən həyata keçirdiyi milli dövlətçilik siyasətinin davamı və qanunauyğun nəticəsi idi.

Mənim ana dilim! Bu o dildir ki, analarımız bizə beşik başında həyatın ən həzin simfoniyası olan laylanı bu dildə demişdir. Bu o dildir ki, Füzuli eşqi, Nəsimi dözümü, Vurğunun Vətən sevgisi, Üzeyirin musiqi dünyası bu dildə ifadə olunmuş, zaman-zaman qanımıza, canımıza hopmuşdur.

Ana dili bizim müqəddəs sərvətimizdir. Ana dili ömrümüzə məna verən, onu gözəlləşdirən əxlaq dərsliyidir. Ana dili adicə bir ifadə deyil, ürəklərə hərarət gətirən, insanı öz keçmişinə bağlayan, gələcəyə səsləyən mənəvi xəzinədir. Ana dili bizim kökümüz, milli mədəniyyətimiz, milli dəyərimizdir.

İnsan hələ körpə ikən dilin vasitəsilə ana laylasındakı doğmalığı duyur, hiss edir, eşitdiyi nağıllardakı hər sözün, hər ifadənin necə səsləndiyini öyrənməyə cəhd edir. Mənim ana dilim Azərbaycan dilidir. Bu dil məni dünyaya gətirən anamın dilidir, üzərində boy atıb böyüdüyüm Vətənimin dilidir, Azərbaycan Respublikasının dövlət dilidir. Dil xalqın ən böyük mənəvi sərvətidir. Bu elə bir sərvətdir ki, xalqın hər bir fərdi onun vasitəsilə özünüifadə imkanı əldə edir. Dil milli kimliyin sənədsiz təsdiq formasıdır.

Ümummilli Lider Heydər Əliyev gənc nəslin ana dilini düzgün, hərtərəfli və elmi əsaslar zəminində mənimsəməsini tövsiyə etmişdi: "Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq".

Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi və yabançı təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyevin dil siyasəti, onun dilimizin inkişafı yönündə göstərdiyi tarixi xidmətlər əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaq.

Heydər Əliyevin milli dil siyasəti onun layiqli varisi, ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, Azərbaycan Prezidentinin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" Dövlət Proqramı qəbul edilib. Proqram çərçivəsində dövlət dil siyasəti bütün parametrlər üzrə həyata keçirilir. Dil komissiyası, Terminologiya kommissiyası, Toponimika komissiyası, Orfoqrafiya komissiyası yaradılıb və bu komissiyalar zaman keçdikcə xeyli təkmilləşdirilib.

***Heydər Əliyevin milli dil siyasəti onun layiqli varisi, ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli fərmanı müstəqil ölkəmizdə dövlət dili istiqamətində ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamı, həyata keçirilən tədbirlərin yeni mərhələsidir.

Qloballaşma dövründə ulu öndər Heydər Əliyevin ideyaları işığında ölkə miqyasında ana dilimizin, Azərbaycan dilinin inkişafında, yeni mərhələ başlanıb. Bu dövrdə dilçilər və ümumiyyətlə ziyalılar qarşısında duran əsas məsələ ana dilinimizin saflığını qorumaqdan, ədəbi dil normalarına riayət olunmasına nəzarət etməkdən, dili yad ünsürlərdən təmizləməkdən ibarətdir. Ulu öndərin söylədiyi kimi: "Dilimizi qorumaq, daha da inkişaf etdirmək bizim ən müqəddəs vəzifəmizdir".

Məlumdur ki, XXI əsr Azərbaycan dilinin inkişafında əlamətdar hadisələrlə zəngindir. Xüsusilə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, ana dilimizin inkişafı, tətbiqi və təsir dairələrinin genişlənməsi ilə bağlı ümummilli liderimiz Heydər Əliyevin fərmanları, sərəncamları, habelə digər hüquqi-normativ aktlar, qanunlar, dilimizin daha da inkişafı üçün əlverişli şərait yaratmışdır. Bu şərait Azərbaycan dilinin tədrisi işinin yüksək səviyyədə aparılmasına geniş imkan və perspektivlər açmışdır. Xüsusilə, 2001 - ci ildə "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" tədbirlər planının həyata keçirilməsi dilimizin öz tarixi inkişafı boyu əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində yaranmış problemlər də geniş təhlil edilmiş və həmin problemlərin həlli yolları göstərilmişdir.

Azərbaycan dili 1300 ilə yaxın yaşı olan, türk dilləri ailəsinin oğuz qrupuna daxil olan, böyük inkişaf yolu keçmiş və dünyada 45 milyondan çox insanın danışdığı ədəbi dillərdən biridir. Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Hər bir xalqın varlığının ən əsas təminatçısı da dildir. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Bu dil özündə xalqımızın əsrlərlə yaşı olan tarixini, mədəniyyətini, etnoqrafiyasını, adət-ənənələrini, qəhrəmanlıq salnaməsini yaşadır, qoruyur, gələcək nəsillərə çatdırır. Bu dil qədim Azərbaycan dövlətlərinin saray dili olub, ordu dili olub, poeziya, incəsənət, mədəniyyət dili olub. Məhz bu dildə yaranıb dünya ədəbiyyatı xəzinəsini bəzəyən əsərlər, bu dildə danışıb dünya incəsənətinə möcüzələr bəxş edən sənətkarlar, bu dildə danışıb dünyaya meydan oxuyan Azərbaycan dövlətlərinin liderləri, bu dildə danışıb qılıncının səsi yeri- göyü lərzəyə gətirən sərkərdələr...

Dil həm də dövlətin varlığını sübut edən atributlardan biridir. Azərbaycan dili Azərbaycan xalqının milli dili, eyni zamanda Azərbaycan Respublikasının rəsmi dövlət dilidir. Bu dildən təkcə respublikamızda deyil, həm də xarici ölkələrdə də istifadə olunur. Dünyanın 87 ölkəsində bu dildə danışanlar vardır. Hazırda ölkəmizdə yaşayan bir sıra azsaylı xalqlar ləhıc, talış, tat, qrız, saxur və başqaları Azərbaycan dilindən ikinci ana dili kimi istifadə edirlər. Dünyanın ən zəngin milli dillərindən olan Azərbaycan dili özünəməxsus gözəlliyi və ahəngi ilə, xoş avaz yaradan səslər sistemi ilə, zəngin rəngarəng söz ehtiyatları ilə fərqlənir. Hər bir dilin tarixi həmin dildə danışan xalqın tarixi ilə sıx bağlıdır. Azərbaycan dilinin tarixi də xalqımızın tarixi kimi çox qədimdir. Tarixin müxtəlif dövrlərində bir sıra işğalçılarla üz-üzə gələrək, mənfur düşmənlə amansız mübarizə apararaq xalqımızı və dilimizi tarix meydanından çıxarmağa çalışan yadellilərin əksinə olaraq tarix boyu öz varlığını qoruyub saxlamış, yadellilərin təqiblərinə baxmayaraq öz tarixi varlığını sübut etmiş, öz orijinallığı ilə inkişaf edərək XIX əsrdə milli dilə çevrilmişdir.

***Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi.***

Mədəni və tarixi hadisə olan dilimizin hərtərəfli inkişafı, dövlət dili səviyyəsinə qalxması, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Bu siyasətin əsası elə bir vaxtda qoyulmuşdu ki, milli dillər sıxışdırılır, "vahid dil" siyasəti təbliğ edilirdi. Belə bir dövrdə ana dili məsələsi çox böyük təqib və təzyiqlərə səbəb olurdu. 70-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildiyi bir dövrdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Ancaq xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev böyük cəsarət və Vətənə sadiqliyi tələb edən mövqe nümayiş etdirərək bütün bunlara baxmayaraq dil məsələsində öz mövqeyini çox qətiyyətlə bildirmişdir. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir." Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır.

Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur. Bu böyük tarixi təşəbbüs idi. Ulu Öndər Heydər Əliyevin ana dilinin dövlət dili olması uğrunda dönməz mübarizəsi dilimizin inkişaf tarixinin qızıl hərflərlə yazılmış səhifələrindəndir. Dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm yetirən Ümummilli Lider Azərbaycan dilinin adını özümüzə qaytarmışdır. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Bu təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir.

Ulu Öndər Heydər Əliyev ana dilimizin tarixi keçmişi ilə yanaşı, mövcud durumunu və problemlərini daim diqqət mərkəzində saxlayıb və bu yöndə bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə dair imza atıb. Ulu Öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır. İlk növbədə müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi Fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir. Sözügedən Fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır. Ulu Öndərin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilməsi Dövlət dili sahəsində yaşanan problemlərin həllinə xidmət edən siyasətin bir hissəsidir.

2002-ci il 30 sentyabr tarixində "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, qanuna əsasən Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Həmin Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ulu Öndər Heydər Əliyev Azərbaycan dili haqqında deyirdi: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

Bu gün Azərbaycan dilini tədris edən və bu işdən şərəf duyan biz müəllimlər qarşısında, çox mühüm, müqəddəs vəzifələr dayanır. İnanırıq ki, Azərbaycan dilinin işlənmə arealının, təsir dairəsinin genişləndiyi, onun tədrisinə böyük əhəmiyyət verildiyi indiki zamanda dilçi alimlərimiz, ziyalılarımız, müəllimlərimiz və bütün ictimaiyyət bu şərəfli missiyanın həyata keçirilməsində var qüvvəsi ilə çalışacaq, ulu öndərin Azərbaycan dilinin inkişafı naminə qəbul etdiyi qərarların, imzaladığı qanunların, fərman və sərəncamların həyata keçirilməsinə nail olacaqlar.

Bu gün müstəqil dövlətimizin müstəqil vətəndaşlarının hər biri öz dili ilə fəxr edir və öz dilini sevirlər. Çünki bu dil "Dəmir yumruq" dilidir, bu dil "Xarı bülbül" dilidir, bu dil dünyanı sülhə, əmin-amanlığa səsləyən dildir. Bu dil 30 illik həsrətə son qoyan igidlərin, Poladları, Cəbrayılları, Xudayarları, neçə-neçə belə qəhrəmanları dünyaya gətirən anaların, qalib və lider dövlətin dilidir.

# Dörd həyat, dörd ümid, dörd arzu





***Samir Quliyev, Şahin Vəliyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadədən danışmaq istəyirəm. Türkiyədə baş verən zəlzələ nəticəsində dağıntılar altında həyatını itirən minlərlə insandan dördü haqqında. Malatya şəhərindəki İnönü Universitetinin azərbaycanlı dörd tələbəsindən söhbət açmaq istəyirəm. Günlərdi onlardan heç bir xəbər yox idi. Deyirlər, dünyada nigaranlıqdan böyük əziyyət yoxdur. Onların valideynləri, yaxınları, qohunları da nigaran idilər. Bütün xalq nigaran idi. Bu nigaranlıq yuxularımızı ərşə çəkmişdi. Dörd tələbəmizin taleyindən xəbərsiz idik…***



### Bir gecənin minlərindən dördü

Minlərlə insan-uşaq, gənc, yaşlı, qoca o gecənin qurbanı oldu. Günlərdir, onlardan danışırıq. Onların vaxtsız bitən həyatlarına təəssüf edirik. Günlərdir, qəlbimiz Türkiyə ilə birlikdə döyünür. Çünki bu xalqın sevinci də, kədəri də bizimdir. O müdhiş gecənin qurbanı olan minlərlə insanın acı taleyi günlərdir ki, yuxularımızı ərşə çəkib. Hər an Türkiyədən gələn xəbərləri gözləyirik: bu gün neçə nəfər xilas oldu, bu gün neçə nəfərin həyatı qurtardı, bu gün neçə insanın cansız cəsədi dağıntılar altından çıxarıldı? Bu gün Türkiyəyə daha hansı dövlət yardım etdi? Oradakı insanların vəziyyəti necə oldu? Harada gecələdilər, nə yedilər, nə içdilər?..

Bu insanların arasında dörd azərbaycanlı tələbədən də xəbər gözləyirdik. Onlar təhsil almaq üçün Türkiyəyə yollanmışdılar. Həmin müdhiş gecədə Malatyada bir binada uyuyurdular. Günlər idi ki, yaxınları, bütün Azərbaycan xalqı dörd tələbəmizin aqibəti üçün narahat idi. Lakin onlardan hələ də bir xəbər çıxmırdı ki, çıxmırdı.

Dəhşətli zəlzələ, sən demə, bu görd gəncimizi yerin dərinliklərinə gömübmüş, günlərdir, dərin axtarışlara baxmayaraq onlar tapılmırdı. Həyəcan isə hər an artır, övladlarımızın harada olması, sağmı, ölümü olmaları bizi sarsıdırdı. Lakin ümid ən son itir, deyirlər. Ümidlərimizi itirmirdik. Onların sağ qurtaracağına ümid edirdik. Bunu gözləyirdik. Lakin günlər keçdikcə, ümid azalırdı, amma itmirdi. Qalan qığılcımları hər an gözərir, bu dörd həyatın yaşaması ümidilə alışırdı

* * *

Dünyada çox az sayda olan bu zəlzələnin təlaşı günlərdir ki, bizi tərk etmir. Dağıntılar altında qalan, həyatı bitmiş insanlar, hələ dünyadan bixəbər uşaqlar, min bir arzu ilə yaşayan, gələcəklə bağlı onlarla arzusu olan gənclər, ömrünün qayğılı günlərini arxada qoyub övladı ilə birlikdə həyatına davam edən yaşlıların acı taleyi həqiqətən də çox kədərlidir. Türkiyənin 10 şəhərinin məhv olması, ölkəyə milyonlarla lirə dəyərində ziyan dəyməsi, insanların evsiz-eşiksiz qalması və bunu dövlətin qısa zamanda qarşılamalı olması məsələsi, sözün həqiqi mənasında, çətin işdir.

Dağıntılar altında həyatını itirənlərin yaxınlarının, qohum-əqrəbalarının nələr yaşadığını, bu ağır fəlakətdə ata-anasını itirib yetim qalan körpələrin onları dördgözlə axtarması, lakin tapa bilməməsini, ümumiyyətlə, məhv olan ailələri, ailələrin sağ qalan üzvlərini gördükcə insan olmazın acılarını yaşayır. Bir anda dünya adamın başına fırlanır. Bu qədər acımı olar? Bu qədər fəlakətmi olar, İlahi?

### Məhv olan ümidlər

Bəli, biz dörd gəncimizi ümidlə gözləyərkən, sən demə, onlar dağıntıların altında bəlkə də zəlzələnin ilk günündən həyatlarını itirmişlər. Biz onlardan bir şad xəbər eşitmək arzusu ilə yaşayarkən, bəlkə də onlar dağıntılar altında günlərdir ki, mücadilə edirmişlər, kim bilir? Kim bilir, onlar həmin anda hansı hissləri yaşayıblar. Bir-biriləri ilə bir kəlmə danışmağa macal tapıblarmı? Bəlkə də bir-birilərinə, sən sağ qalsan, mənim ailəmə bu sözləri deyərsən, deyiblər. Bəlkə də bir-birinə, sən sağ qalsan, o qıza bu sözləri çatdırarsan, deyəni olub.

Bəlkə də elə həmin andaca dünyalarını dəyişiblər, kim bilir Bu qədər gec tapıldıqlarına görə yəqin ki, çox dərinlərə düşübmüşlər, dağıntıların altında qalıbmışlar. Kim bilir?...

Düz 8 gün axtarılan, sonra tapılan gənclərimiz bizə acı günlər yaşatdı, əlimizdə tək qalan ümidimizi də yoxa çıxardılar. Hansı ki, günlərdir, o ümidlə yaşayırdıq. Onların sağ qalacağına ümidlə yanaşırdıq. Çünki onları itirəcəyimizi ağlımıza belə gətirmirdik. Bu itkini yaxınımıza belə buraxmırdıq. Gözlərimiz televiziya ekranlarında, qulaqlarımız səsdə idi. Azərbaycan adı gələn kimi, yəqin tələbələrimizdən bir xəbər var, deyib bütün diqqətimizi o səmtə yönəldirdik.

Dünən axşam saatlarından yayılan, bu gün səhər saatlarında isə tamamilə dəqiqləşən məlumatdan sonra ümidlərimiz birdəfəlik məhv oldu. Biz dörd gəncimizi, tələbəmizi, oxumaq, təhsil almaq üçün Türkiyəyə göndərdiyimiz övladlarımızı itirdik. Dörd həyat susdu. Dörd ümid qırıldı. Dörd arzu yarımçıq qaldı.



Tələbələrimizin valideynləri Türkiyəyə-zəlzələ bölgəsinə yollanmışdılar. Dünənədək övladları ilə görüşmək, onların qayğıları ilə maraqlanmaq üçün Türkiyənin bu gözəl şəhərinə-Malatyaya yollanan valideynlər bu dəfə qara bir xəbər üçün çağırılmışdılar. Dünənədək böyük bir sevinclə-balalarını görəcəkləri ilə fərəhlənərək Türkiyəyə yollanan ata-analar, bu dəfə onları nələrin gözlədiyini təxmin edərək yolçuluğa çıxmışdılar. Çox təəssüf ki, budəfəki səfərlərində acı ilə qarşılaşdılar, övladlarının cansız cəsədləri ilə üzləşdilər.

Görəsən onları son dəfə nə zaman görmüşdü bu valideynlər? Hansı geyimləri, hansı hərəkətləri, hansı təbəssümləri ilə onların yaddaşında qalıbmışlar? Kim deyərdi ki, o, son görüş olacaqdı. Kim deyərdi ki, dörd tələbəmiz bir daha Vətənə dönməyəcək. Türkiyə bizə Vətənimiz qədər əziz olsa da, lakin Vətən əvəzsizdir, hər kəs harada yaşamasından, oxumasından asılı olmayaraq son an üçün Vətənini seçir, Elə buna görə də tələbələrimizi itirməyimiz bir yanğımızdırsa, onların Vətəndən kənarda dünyalarını dəyişməsi isə digər bir acımız, yanğımızdır

### Yarımçıq həyatlar, natamam arzular

Dörd tələbəmizin nakam taleyi qarşısında düşüncələrə dalıram. Bu yarımçıq həyatlar mənə onların gələcək üçün qurduqları planlardan, arzulardan, istəklərdən söhbət açır. Nə qədər böyük arzu ilə Türkiyəni, belə gözəl universiteti seçdiklərindən, təhsildən sonrakı arzularından danışır. Həyatları yarımçıq qalmasaydı, onların gələcəkdə hansı mövqedə olacaqlarını xatırladıqca dərin təəssüf hissi dolur qəlbimə. Düşünürəm ki, bu dörd tələbəmiz illər sonra ziyalı kimi Vətənə qayıdacaqdı. Ölkəmizin gələcək inkişafına, tərəqqisinə töhfələrini verəcəkdilər. Lakin həyatın amansız qanunları həmişə arzularımızın reallaşması tərəfində olmur. Bir də baxırsan ki, arzularının üstündən həyat qara bir xətt çəkir. Samirin, Şahinin, Hümamın və Gündüzün arzuları kimi. Bu qara xətlə arzuları da özləri kimi torpağa gömüldü onların. Yarımçıq qaldı.

Təbiətin bildiyimiz, amma hər an gözləmədiyimiz qanunları bəzən əlimizdən beləcə qoparır həyatımızı. Bu həyatla da hər şey bitir, biz bitdiyimiz kimi. Türkiyənin seysmik bölgə olduğunu kim bilmirdi ki?.. Lakin kim düşünərdi ki, yox, mən burada ev tikməyim, burada iş qurmayım, burada təhsil almağa başlamayım, nə vaxtsa zəlzələ ola bilər, hər şeyi tar-mar edər. Təbiətin özünəməxsus qanunları olsa da, lakin həyat davam edir. Elə buna görə də bildiyimiz, gözlədiyimiz halda yaşamağa davam edirik. "Alın yazısı harada daşlara çırpılar, harada bitər",- deyə düşünmürük.

Bəli, düşünmədiyimiz və belə böyük fəlakətlərə yol açacağını fikirləşmədiyimiz zəlzələ Türkiyəmizin 10 şəhərini alt-üst etdi. Evlər, məktəblər, xəstəxanalar, minlərlə obyekt dağıldı, məhv oldu. Minlərlə insanın ömrü nöqtələndi. Bir millət, iki dövlət olaraq acımız böyükdür. Qardaş ölkədə dünyasını dəyişənlərin hər biri bizim üçün əzizdir. Dağıntılar altından sağ-salamat qurtaranların hər biri bizim sevincimizdir. Valideynlərini, əzizlərini, yaxınlarını itirib qəlb ağrısı yaşayanların hər birinin kədəri bizim kədərimizdir.

Min bir əziyyətlə ev qurub, lakin doyunca içərisində yaşamayanların acısı bizim acımızdır. Həyatı boyu çətinliklərə sinə gərib, qalan ömrünü rahat yaşamaq istəyən, lakin buna müvəffəq ola bilməyən yaşlıların, qocaların qəmi-ələmi bizim dərd, ələmimizdir.

Eləcə də bu zəlzələ nəticəsində həyatlarını itirmiş, arzularını gömmüş dörd balamızın da kədəri bütün xalqımızın kədəridir. Biz hər zaman kədərimizi də, sevincimizi də paylaşmışıq türk qardaşlarımızla. Bu ağır günlərdə də bu kədəri paylaşırıq. Çünki deyirlər ki, sevinc paylaşdıqca, çoxalar, kədər paylaşdıqca, azalar. Qoy kədərimiz azalsın, günlər sonra yoxa çıxsın. Bizlərə kədər yaraşmır. Allah ölənlərimizə rəhmət eləsin, yaralıların şəfasını versin. Ümidvarıq ki, bizlərin də köməyi ilə Türkiyə tezliklə bu ağır hadisənin təsirindən qurtaracaq. Yeni binalar tikiləcək, zərərgörənlər yerləşdiriləcək, insanların əvvəlki həyatına qayıtmaları üçün hərtərəfli tədbirlər görüləcək.

Düzdür, əvvəlki həyatı dəyişmiş çox məqamlar var, lakin nə etməli, həyat davam edir...

***Mətanət Məmmədova***

PUBLİSİSTİK DUYĞULAR



# İnsan ac və susuz nə qədər yaşaya bilər?

***Yetkin bir insanın yeməksiz 1-2 ay yaşaması ehtimalı var. Ancaq yeməkdə olduğu kimi, insanların su olmadan nə qədər yaşaya biləcəyini dəqiq söyləmək çətindir. Sağlam bir yetkin insan, adətən, su olmadan 3 günə qədər dayana bildiyi halda, bu müddətin nadir hallarda 8-10 günə qədər uzana biləcəyi müşahidə edilir. Bunlarla yanaşı, xəstəliklər və ya isti mühit susuzluğa dözümlülüyü azaldır.***



Uşaqların aclıq və susuzluğa dözümlülüyü çox dəyişkəndir. Məsələn, yay günü isti maşında qalan kiçik uşaq tez susuzlaya və bir neçə saat ərzində ölə bilər.

### Bir insan susuz neçə gün yaşaya bilər?

İnsan orqanizminin düzgün işləməsi üçün çoxlu suya ehtiyacı var və susuz cəmi bir neçə gün yaşaya bilər. İnsanın fəaliyyət səviyyəsi və ətraf mühit kimi bir çox digər amillər də onların suya ehtiyacında mühüm rol oynayır. Buna görə də kiminsə su olmadan nə qədər yaşayacağını söyləmək çətindir.



Bədəndə su itkisinə tibbi dildə susuzluq deyilir. Dehidrasiya saatlar və günlər ərzində sürətlə baş verə bilər, bu da həddindən artıq susuzluğa, yorğunluğa və müalicə olunmazsa, nəticədə orqan çatışmazlığına və həyat itkisinə səbəb ola bilər. İnsan ilk gün susuzluqdan və yüngül nasazlıqdan şikayətlənsə də, üçüncü gün orqan çatışmazlığına gedə bilər.

Dehidrasiya hər kəsə eyni şəkildə təsir etmir. Hər bir insanın susuzluğa qarşı fərqli dözümlülük səviyyəsi var. Bir insan susuz başqasına nisbətən daha uzun və ya daha qısa müddət ərzində yaşaya bilər. Bədənin daxili temperaturu tarazlaşdırmaq və hüceyrələri canlı saxlamaq kimi bir çox vacib funksiyaları yerinə yetirmək üçün bol suya ehtiyacı var. Bir qayda olaraq, bir insan susuz təxminən 3 gün yaşaya bilər.

**Bir insanın nə qədər suya ehtiyacı olduğunu dəyişə bilən amillərə aşağıdakılar daxildir:**

- yaş
- fəaliyyət səviyyələri
- ümumi sağlamlıq
- boy və çəki kimi bədən amilləri
- cins
- mühit temperaturu

İnsanın nə yediyi onun içməli olduğu suyun miqdarına da təsir edə bilər. Məsələn, meyvə, şirələr və ya tərəvəz kimi su ilə zəngin qidalar yeyən bir insan taxıl, çörək və digər quru qidalar yeyən birindən daha az su içir.

Çox isti iqlimdə yaşayan insan tərləyərək daha çox su itirir. İqlimlə idarə olunan bir mühitdə insan tərləməyəcəyi üçün çox su istifadə etməyəcək.



Susuz sağ qalmanın qeydə alınmış ən uzun hekayəsi həbsxanada baş verib. Zindanda unudulan məhbus 18 gün susuz sağ qalıb. Sərin və qapalı bir mühitdə olmaq, günəşi görməmək onun bu qədər uzun müddət dayanmasına səbəb olub.

### Su çatışmazlığının orqanizmə təsirləri nələrdir?

İnsan susuz qısa müddət yaşaya bilər, çünki orqanizm demək olar ki, hər bir fizioloji proses üçün suya ehtiyac duyur:

- tərləmə və tənəffüs yolu ilə bədən istiliyinin tənzimlənməsi
- tüpürcək əmələ gətirərək və qidaları parçalayaraq həzmə kömək edir
- selikli qişaları nəmləndirir
- bədənin pH balansına kömək edir
- beyinin müəyyən hormonların istehsalına və istifadəsinə kömək edir
- toksinlərin hüceyrələrdən çıxarılmasına kömək edir
- sidik və tənəffüs yolu ilə tullantıların aradan qaldırılması
- bədənə oksigen verir.

Susuzlaşdırmanın təsiri, xüsusilə həddindən artıq isti şəraitdə bir insan tərlədikdə tez baş verir. Bədən tər istehsal etmək üçün sudan istifadə edir ki, bu da insanın bədən istiliyini aşağı salır. Su olmadan bədən tər istehsal edə bilməz.

Susuzluq qan həcminin azalmasına səbəb olarsa, qan bütün bədəndə daha az dövr edir və qan təzyiqinin kəskin azalmasına səbəb olur. Hipotansiyon (aşağı qan təzyiqi) huşsuzluğa və ya həyat itkisinə səbəb ola bilər.

Su bədəndən toksinləri sidik və tənəffüs yolu ilə çıxarmağa kömək edir. Su olmadan bədən bunu səmərəli şəkildə edə bilməz və toksinlərin yığılmasına səbəb olar. Böyrəklər sağlam olmazsa, toksinlər daha da yığılır və geniş yayılmış orqan çatışmazlığına, yaxud ölümə səbəb olur.

### Susuzluğun (su itkisi) əlamətləri hansılardır?

Susuzlaşdırma simptomları tez görünə bilər. Bədən su itirməyə başlayarsa, o, beyinə siqnallar göndərərək, insanın fərqinə varacaq bir reaksiya verə bilər. Əksər insanlar açıq quru ağız və ya çox susuzluq kimi kiçik susuzlaşdırmanın ilk əlamətləri ilə tanışdırlar. Susuzluq bir insanın bədənində kifayət qədər su olmamasının ilk əlamətidir.

Aparılan bir araşdırmaya görə, su insanın bədən çəkisinin 60%-ni təşkil edir və susuzlaşdırma nəticəsində bu çəkinin yüzdə 3-dən çoxunu itirmək susuzluğa səbəb ola bilər. Bir şəxs bu əlamətlərə məhəl qoymursa və ya su ala bilmirsə, bədəni cavab verəcək. Beyin suya qənaət etmək və daha az sidiyə çıxmaq üçün bədənə siqnallar göndərir. Bu da böyrəklərin fəaliyyətini ləngidir.

Susuzlaşma bədəndə digər mühüm dəyişikliklərə səbəb ola bilər:

- zəiflik və ya enerji çatışmazlığı
- baş ağrısı
- başgicəllənmə və qarışıqlıq
- günvurma
- düzgün işləməyən sərt oynaqlar
- qızdırma
- beyində şiş
- qan təzyiqində kəskin dəyişikliklər.

İnsan həm də şoka düşə və reaksiya verə bilməz. İnsanların yaşaması üçün mütləq su içməyə ehtiyacı yoxdur. Bədəniniz digər sulu qidaları qəbul etməklə də su və elektrolit ehtiyacını ödəyə bilər.

Pun Lim adlı çinli dənizçi 1942-ci ildə okeanda salda 133 gün sağ qalıb. Birinci ayın sonunda ehtiyatı tükənən dənizçi sonradan balıq tutmaqla, qağayı ovlamaqla, hətta köpək balıqlarını ovlamaqla və qanını içməklə sağ qalmağı bacarıb.

Ardı Səh. 12

ARAŞDIRMA

# İnsan ac və susuz nə qədər yaşaya bilər?



Əvvəli-Səh-11

### Əzilmə (Crush) Sindromu - Zəlzələ kimi təbii fəlakətlərdə əzilmə nəticəsində yaranan bir vəziyyət

Əzilmiş insanlarda ciddi əzələ zədəsi varsa, susuzluğa gözlənildiyindən daha az tab gətirə bilər. Əzilmə Sindromu əzilmə zədəsi, uzun müddət sıxılma və hərəkətsizlik nəticəsində yaranan narahatedici sağlamlıq problemidir. Əzələlərin həddindən artıq əzilməsi, sürətli və təsirli müalicə tətbiq edilmədikdə, həyat itkisi ilə nəticələnə biləcək bir prosesə keçə bilər.

Əzilmə Sindromunda ölümün səbəbləri ağır maye itkisi, əzələ zədələnməsi səbəbindən yüksək kalium, aşağı kalium, metabolik asidoz, böyrək çatışmazlığı və kompartman sindromudur. Həddindən artıq maye itkisi nəticəsində yaranan şokun əsas səbəbi zədələnmiş əzələlərdə hüceyrədənkənar mayenin böyük hissəsinin yığılmasıdır. Unutmaq olmaz ki, zəlzələ fəlakətlərindən günlər keçsə də, xarabalıqlar altından çoxlu sayda canlı çıxarıla bilər.







### İnsan neçə gün yeməksiz qala bilər?

Bədənin yeməksiz qalma müddətinə bir çox fərqli faktor təsir etdiyi üçün bu müddət insandan insana dəyişir. Elm adamları insan aclığını araşdırıblar. Məlumatlar tez-tez aclıq aksiyaları, təbii fəlakətlər və qıtlıq dövrlərinin müşahidə tədqiqatlarından əldə edilir.

70 kiloqram çəkisi olan tipik, yaxşı qidalanan kişi 1 aydan 3 aya qədər yaşamaq üçün kifayət qədər kaloriyə malikdir. Həmçinin, aclıq aksiyalarına qoşulmaq üçün yemək yeməyini könüllü olaraq dayandıran insanlar 45-61 gündən sonra ölür. Bədənin yaşaması üçün qida maddələrinə ehtiyacı var. Hüceyrələri bərpa etmək və bədənin həyati proseslərini gücləndirmək üçün zülal, karbohidrat və yağlara, həmçinin vitamin və minerallara ehtiyac var.

Alimlər adi bir insanın yeməksiz nə qədər yaşaya biləcəyinə tam əmin deyillər. Tədqiqatçıların insanların nə qədər yaşaya biləcəyinə dair ən yaxşı göstərici aclıq aksiyası keçirənlərdəndir. SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bütün bunlarla yanaşı, Türkiyədə baş verən zəlzələ zamanı günlərlə dağıntılar altında ac-susuz qalan insanlar var. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

- Türkiyənin Hatay vilayətində axtarış-xilasetmə işləri çərçivəsində 29 saat sonra ana ilə 6 aylıq körpəsi xilas edilib. 30 yaşlı Hülya Yılmaz və 6 aylıq qızı Ayşe Vera Yılmaz dağıntılar altından sağ çıxarılıblar. Onlar müalicə üçün xəstəxanaya yerləşdiriliblər.
- Adıyamanda zəlzələdən 35 saat sonra binanın dağıntıları altından bir nəfər xilas edilib. Komandalar Alitaşı Mahallesi 1302 küçəsində dağıntılar altından 15 yaşlı Mahmud Nəbi Uygülü xilas edib. Zəlzələdən 35 saat sonra xilas edilən Uygül xəstəxanaya aparılıb. Ata Mustafa Uygül oğlunun dağıntılar altından çıxarılmasından xoşbəxt olduğunu və xilas edilən digər oğlunun əməliyyat olunmaq üçün Ankaraya aparıldığını bildirib.
- Türkiyənin Hatay bölgəsində baş vermiş dəhşətli zəlzələdən sonra axtarışlar zamanı 49 saat uçqun altında qalan şəxs xilas edilib. İxtisasca müəllim olan vətəndaşın sağ çıxarılması ətrafdakı insanlar tərəfindən alqışlarla qarşılanıb. O, müayinə üçün xəstəxanaya aparılıb.
- Qaziantepdə baş verən zəlzələdən 76 saat sonra dağıntılar altından iki nəfər xilas edilib.
- Türkiyənin Diyarbakır şəhərində 101 saatdan sonra ana və 9 yaşlı oğlu dağıntılar altından sağ xilas edilib.
- Türkiyənin Adıyaman bölgəsində xilasetmə işləri davam edir. Türkiyənin səhiyyə naziri Fahrettin Koca zəlzələdən 178 saat sonra dağıntılar altından xilas edilən azyaşlının görüntülərini paylaşıb. 6 yaşlı Hivaya ilkin tibbi yardım edilib. Azyaşlı tibbi yardım qruplarından çiyələkli süd və şirniyyat istəyib.

***Ayşən Vəli***

# Qərbi Azəbaycan-qədim vətənə qayıdış!



## İrəvan tarixi Azərbaycan diyarıdır

Ermənistanın Azərbaycana təcavüzü zamanı qədim torpaqlarımızda 1600 müsəlman dini abidəmiz ermənilər tərəfindən dağıdılıb, 1700 tarix və mədəniyyət abidəsinin üzərindəki tarixlər, divar yazıları götürülərək erməni mətnləri ilə əvəzlənib. Statistik rəqəmlərə nəzər saldıqda görürük ki, 500-dək tarixi memarlıq, 100-dən artıq arxeoloji abidə, fondlarında on minlərlə əşyanın toplandığı 22 muzey, 4 rəsm qalereyası, 4,6 milyon kitab və əlyazmaları saxlanılan 927 kitabxana, 808 klub, 85 musiqi və incəsənət məktəbi, 10 istirahət və mədəniyyət parkı, 20 konsert təşkilatı, bundan əlavə əhalinin şəxsi evlərində saxlanılan 100 minlərlə dekorativ-tətbiqi sənət nümunələri Ermənistanın silahlı hərbi təcavüzü nəticəsində yandırılıb, talan-qarət edilib. XVII əsrə aid olan Cəbrayıl bölgəsindəki Cümə məscidi, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri və Şuşa şəhərindəki Saatlı məscid (bu məscidlər XVIII əsrə aiddir) vandalizm, dağıdılma və uçurulma aktlarına məruz qalmış, Ağdam məscidi isə təhqir olunaraq donuzlar və inəklər üçün tövləyə çevrilmişdir. Tarixi dövrdə baş verənlərə nəzər saldıqca görürük ki, ermənilərin həyata keçirdikləri əməllər iyrənc siyasətidən qaynaqlanır.

### “QƏRBİ AZƏRBAYCAN TARİXİ AZƏRBAYCAN DİYARIDIR, ŞƏHƏRLƏRİN, KƏNDLƏRİN ADLARI AZƏRBAYCAN MƏNŞƏLİDİR”

Son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin ”tarixi əzəli torpaqları”nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında ”Gülüstan”, ”Türkmənçay”, Rusiya və Türkiyə arasında ”Andrianopol” müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar. ”Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi izini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.” Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı çıxışında bildirmişdir.



1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəlir. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atılır. Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olurlar. Ermənipərəst qüvvələrin və millətçilərin yürütdükləri məkrli siyasət nəticəsində 1923-cü ildə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır. Bundan sonra azərbaycanlıların öz doğma ocaqlarından zorla qovulması və onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlanır. Nəticədə XX əsrin müxtəlif dövrlərində iki milyona yaxın soydaşımız öz tarixi torpaqlarından qovulur, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək didərgin salınırlar.

### “QƏRBİ AZƏRBAYCANLILAR QANUNSUZ OLARAQ DƏFƏLƏRLƏ DEPORTASİYAYA MƏRUZ QALMIŞ TOPLUMDUR”

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Tarixi proseslərin davamı olaraq iyirminci əsrin sonunda 1988-ci ildən başlayaraq Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göycədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. ”Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq”, - deyə Cənab Prezident bildirib. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

### “BİZ AZƏRBAYCANLILAR BÜTÜN TARİXİ TORPAQLARIMIZA QAYIDACAĞIQ”

Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır. Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilir ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Zəngəzurdakı türk mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. Xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik öz qiymətini alacaq. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, Azərbaycanın əzəli torpağı olan Zəngəzurun Azərbaycandan ayırıb Ermənistana verilməsi böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır, - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev Zəngəzurun tarixi dövrdəki əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu bildirib. Təbii ki, mənbələrdə göstərildiyi kimi, Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları olub. Tarixi ədalətsizliyin sağalmayan yara olduğunu qeyd edən Cənab İlham Əliyev ”vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq”- deyə əminliyini ifadə edib. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində indi Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etməyi haqqıdır.

Bu gün əzəli torpağımız olan İrəvanda tarixi mədəniyyət abidələrimiz dağıdılıb, məhv edilibdi. Belə ki, indi Ermənistan Respublikası adlanan tarixi Azərbaycan ərazisində çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri mövcud olmuşdur. Orta əsrlər dövrünə və Rusiya işğalı dövrünə aid ədəbiyyatlarda indiki Ermənistan ərazisində mövcud olmuş və hərbi istehkam xarakteri daşıyan İrəvan qalası, Keçi qalası, Sərdarabad qalası, Talın qalası, Gümrü qalası, Şörəyel qalası haqqında məlumatlar verilir. Oradakı Dəmir Bulaq məscidi yerlə yeksan edilib, Göy məscidin isə orijinal görünüşünü dəyişdirilmək məqsədilə yenidən təmir olunub. Rəcəb Paşa məscidi, Hacı Cəfər bəy məscidi, Novruzəli bəy məscidi tamamən dağıdılmışdır.

Sərdar məscidi (1510-1918-ci illər) Sovet Ermənistanı dövründə hissə-hissə sökülərək onun yerində yaşayış evləri tikilib. İrəvanın mərkəzindəki Sərdar məscidi də sistematik olaraq dağıdılıb və 2014-cü ildə yerə yeksan edilib.

Bu və ya digər tarixi abidələrimiz sırasında ən möhtəşəm olanı və tədqiqatlarda indi də tez-tez adı çəkilən qala İrəvan qalasıdır. Tarixi mənbələrdə göstərilir ki, İrəvan qalası haqqında ilkin yazılı məlumat Səfəvilər dövrünə aiddir. İstər Səfəvilərin, istər Nadir şahın, istər Qacarların, istərsə də Osmanlıların hakimiyyəti dövründə İrəvan hakimlərinin, bəylərbəylərinin və xanlarının iqamətgahı İrəvan qalasında olmuşdur.

İrəvan qalasının ruslar tərəfindən işğalından sonra qala dövlət mülkiyyəti elan edilmişdi. XIX əsrin 30-cu illərində İrəvan qalasında-ki 120-dən artıq binada müxtəlif təyinatlı dövlət müəssisələri və təşkilatlar yerləşirdi.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1924-cü ildə şəhərin baş planı təsdiq edilmişdir. Baş planın başlıca məqsədi azərbaycanlılara məxsus olan tarixi-memarlıq abidələrini yer üzündən silməkdən ibarət olmuşdur. 1936-cı ildə İrəvanın yeni baş planı hazırlanmışdır və onun həyata keçirilməsi nəticəsində qalanın içərisində müasir tipli hündürmərtəbəli binalar inşa edilmişdir.

İrəvan qalasının həmyaşıdları - Bakıda İçərişəhərin qala divarları, onun içərisindəki Şirvanşahlar sarayı, Şəkidə Xan sarayını əhatə edən qala divarları bu gün də yaşayır və keçmişdən bu günə soraq verirlər. Mənbələrdə qeyd olunur ki, hazırda İrəvan şəhər tarix muzeyində müasir erməni memarları tərəfindən hazırlanmış İrəvan qalasının maketi nümayiş etdirilir. Maketdən görünür ki, heç də qalada mövcud olmuş bütün tikililər orada öz əksini tapmamışdır. Həmçinin həmin muzeydə qalanın ruslar tərəfindən işğalından sonra ələ keçirildiyi iddia edilən ”İrəvan qalasının açarı” da nümayiş olunur.

Əlbəttə ki, göründüyü kimi, İrəvan şəhərində tarixi-memarlıq abidələrinə, dini ocaqlarımıza olan təcavüz xalqımızın tarixi keçmişini yer üzündən silmək məqsədi daşıyıb.

***Zümrüd BAYRAMOVA***

# Volodinin bəyanatı erməni siyasi rəyini yerindən niyə və necə oynatdı?





*Qraç Qalustyan: "Sizə elə gəlir ki, o blef edir, yaxud təhdid irəli sürür? Yox! Hər şey belə də olacaq!"*

Rusiya Federasiyası Dumasının spikeri Vyaçeslav Volodinin Azərbaycanın Milli Məclisinin sədri Sahibə Qafarova ilə görüşü zamanı Ermənistanın mövcud hakimiyyətini hədəfə alan bəyanatı erməni ictimai rəyini sözün əsl mənasında yerindən oynadıb. Məsələ ondadır ki, bəyanat səslənər-səslənməz yalnız erməni KİV-lərində deyil, həmçinin sosial şəbəkə platformalarında da kəskin müzakirələrə səbəb olub, hətta bu bəyanatın Rusiyanın Ermənistana qarşı cəbhə açacağı barədə xəbərdarlıq mesajı olduğunu da deyənlər oldu. Bəs daha nə baş verdi ki, erməni ictimaiyyətində yer-yerindən oynadı?







## Vyaçeslav Volodin: "Kimlər ki, Avropa institutlarına tərəf bəyanatlar verirsə, onlar sadəcə ölkəni itirə bilərlər"

Qeyd edək ki, Volodin Ermənistanın eyni anda iki stulda oturmağa cəhd etdiyini və bu cəhdin İrəvan üçün baha başa gələcəyini bildirib. O cümlədən əlavə edib ki, belə siyasət İrəvan üçün yaxşı gələcək vəd etmir, üstəlik ölkə olaraq məhv olmaq təhlükəsi də istisna olunmur. Gəlin həmin ifadəni lap dəqiq, olduğu kimi təqdim edək. SİTAT: "Kimlər ki, Avropa institutlarına tərəf bəyanatlar verirsə, onlar sadəcə ölkəni itirə bilərlər". Necə deyərlər, qısa və konkret!

## Erməni analitiki: "Biz ağır zamanlara hazırlaşmalıyıq"

Başqa tərəfdən, Ermənistanda yaranmış siyasi qurcalanma da belə nəticəyə gəlməyə əsas verir ki, RF Dumasının sədrinin bəyanatı boş yerə havaya atılmayıb və ciddi məsələdir. Təkcə erməni siyasi şərhçisi, analitik Qraç Qalustyanın sosial şəbəkədə yazdığı statusuna diqqət yetirək. SİTAT: "Sizə elə gəlir ki, o blef edir, yaxud təhdid irəli sürür? Yox! Hər şey belə də olacaq! Həm bizim həyatımız, həm də dövlət təhlükə altındadır. Buna müvafiq olaraq biz ağır zamanlara hazırlaşmalıyıq".

Bax, bu qədər bəsit..! Yəni bu bir düşüncəsi və dərketmə qabiliyyəti olan bir erməni analitikinin gəldiyi yekun qənaətdir və paralel olaraq çıxardığı doğru əsasdır.


«Независимая газета»: Противоречия между Москвой и Ереваном могут привести к превращению Армении в военную площадку

НОВОСТИ ГАЗЕТА ПРИЛОЖЕНИЯ ТЕМЫ ФОТО ВИДЕО КАРТ-БЛАНШ БЛОГИ АРХИВ ТЕГИ

Ереван увяз в противоречиях между Западом и Россией

Миссия наблюдателей ЕС в Армении может быть не вполне гражданской

## Qraç Qalustyan unutmamalıdır ki, dədə-babalarının törətdiklərinə görə ödəşmə vaxtı çatıb

Fəqət, Volodinin bəyanatından nəticə çıxaran Qalustyan və onun timsalındakı digər ermənilər bir həqiqəti də ya etiraf etməli, ya da dərk etməlidir. Məsələn, etiraf etməlidir ki, öz dədə-babasının buraxdığı səhvləri ucbatından ölkəsi və xalqı belə bir vəziyyətə düçar olub. O cümlədən, bu dediklərini dərk etməlidir. Yaxud, Qraç Qalustyan daha bir faktoru da unutmamalıdır ki, məhz dədə-babalarının törətdiklərinə görə artıq ödəşmə vaxtı çatıb. Hətta bu barədə daha əvvəldən düşünməliydilər. Amma indi də gec deyil. Bu gün ermənilərin hərbi-siyasi isteblişmentinin təmsilçiləri özlərinə yeni ağalar, sahiblər axtarmaları yerinə ən normal həyat sürmək üslubunu seçməlidirlər – satmamalı və xəyanət etməməli..! Bax, onda nə bu xalqa, nə də başqalarının torpaqları, əraziləri üzərində qurulmuş psevdodövlətə qarşı hər hansı bir təhlükə yaşanmayacaq. Amma hər bir erməni – istər hakimiyyətdəkilər olsun, istərsə də qeyri-hakimiyyətdəkilər, onların hər biri eyni dərəcədə düşüncə sahiblərinə deyillər və artıq bu zümrəyə xas olan xəyanətkarlıq, kürəkdən xəncər saplamaq bir ənənəyə çevrilib. Hələ ki, həmin ənənədən imtina etməyə vaxt var, amma bu vaxt da çox azdır...

**Rövşən RƏSULOV**

TƏRS BAXIŞ-AKTUAL



## Erməni ermənilliyində qalır

**Mətanət Məmmədova**

***Desəm ki, erməniləri dünyada bizdən gözəl tanıyan millət yoxdur, əsla və əsla yanılmaram. Çünki 30 illik zaman kəsiyində bu, özünün təsdiqini o qədər dəqiq formada tapıb ki...***

Məlum olanda ki, Türkiyədə baş vermiş zəlzələ səbəbindən axtarış işlərinə cəlb edilən bəzi erməni xilasedicilərin soyğunçuluqla məşğul olduqları üzə çıxıb, bu, mənə heç də qəribə gəlmədi. Çünki qonşuluqdan kənar olmuş qonşularımızın xislətinə çox yaxşı bələdik. Min bir hiylə ilə işğal etdikləri torpaqlarımızdan silah gücünə, zorla çıxardıqları insanların bütün mal-mülkünü mənimsəmədilərmi? Tək canlarını götürüb çıxan soydaşlarımızın bütün sərvəti ermənilərə qalmadımı?

Qarabağ torpaqları ölkəmizin ən zəngin torpaqları olub, bunu hər kəs yaxşı bilir. Bu səbəbdən də orada yaşayan insanların evləri çox təmtəraqlı idi. Təbii ki, içi də çölü kimi zəngindi. O insanların qızıl, gümüş zinət əşyaları kimlərə qaldı? O evlərin bütün əşyası, mal-mülkü, malheyvanı ermənilər tərəfindən qarət olunmadımı?

Gəlin, ey insanlar, gəlin, gedin Qarabağa, baxın, görün oradakı insanların ev-eşiyini bu quldurlar nə hala salıblar. Hamısının qapı-pəncərəsini, dam örtüyünü söküb satıb-sovublar. Həm də kimə satıblar, bunu da hər kəs yaxşı bilir. Ən yaxın qonşularına, hansı ki, illərdir, bir qabdan yemək yeyirlər.

Onlar Qarabağı o vəziyyətə salıblar ki, bu torpaqlar xarabalığa bənzəyir. Sökülmüş, dağıdılmış, daşınmış evlərin ancaq divarları qalıb, onlar da uçuq-sökük vəziyyətdə.

Bununla kifayətlənməyiblər, xeyr, həmin torpaqların yeraltı-yerüstü sərvətlərini də 30 ildə daşıyıb dünya bazarına çıxarab satmaqla məşğul olublar. Meşələri məhv ediblər, çinar ağaclarını, qızıl yataqlarını mənimsəyiblər.

Beləliklə, onların köhnə peşəsinə biz o qədər gözəl bələdik ki Eşidəndə ki, Ermənistandan Türkiyəyə xilasedicilər gedir, inanın, bir neçə gün sonra bu xəbəri eşidəcəyimə çox əmin idim.

Bundan əlavə, Ermənistanın Türkiyəyə yardım təşəbbüsü heç də ürəkyanarlıdan irəli gələ bilməz. Qurd dumanlı gün axtarar, deyərlər. Onların məqsədi fürsətdən istifadə edib Türkiyə ilə aralarındakı illərdən bəri davam edən soyuq münasibəti istiləşdirmək idi. Əslində, yaxşı düşünmüş və addım atmışdılar. Lakin içlərindəki tamahının öhdəsindən gələ bilməyənlər, hansı ki, bu, qandadır, cuşa gəldimi, qarşısını almaq mümkün deyil, yenə də ermənınin ermənilliyində qaldığını sübut etdi.

Yenə atalar demişkən, qaş düzəltdikləri yerdə vurub göz tökdülər. Mənim üçün o qədər maraqlıdır ki, İlahi, görəsən bunlar xəcalət deyilən hissi azacıq da olsa, yaşadılar? İnsanların məhv olduğu, həyatının bitdiyi, bir ömürlük zilm-zillətlə qurub-yaratdığı ev-eşiyinin bir anın içərisində tar-mar olduğu bir vaxtda, bir ailənin, bir nəslin yer üzündən silindiyi zamanda, ürək onların əşyalarını əyilib götürməyə necə izn verə bilər?

Bax, elə əsas məsələ də budur . Bəli, "ürək yanmasa, gözdən yaş çıxmaz",- deyib, atalarımız. Ermənini türkün canının yanması niyə incitsin ki?.. Məgər tarixən dərdləri türkün məhv olması, yer üzündən silinməsi olmayıbmı? Məgər arzuları türkün qaragünlü olması olmayıbmı?

Belə isə nə üçün ürəkləri yanmalı idi?.. Yanmaz onların ürəkləri türkə. Türkiyəyə gedişləri də məqsədli olsan ermənilərdən bundan başqa nə isə gözləmək də ağılsızlıq olardı.

Lakin ümidvaram ki, Adıyamanda zəlzələ zamanı dağılmış evdən qarət və oğurluq etdiklərinə görə Arsen Qazaryan və Vahan Sürmalyanı ermənilərin hər biri qınayacaq. Çünki onların bu hərəkəti etdikləri yardımın arxasında dayanan məqsədə kölgə salmış oldu.

Qoy, bütün dünya bilsin. Bilsin ki, ermənidən gələn xeyir min bir ziyandan da zərərlidir. Onların məqsədi, məramı olmasa, bir addım belə atmazlar. Bunu onları hər kəsdən yaxşı tanıyan xalqın nümayəndəsi olaraq söyləyirəm. Qoy, hamı tanısın onları. Tanısın ki, bu xalqın quldur nümayəndələri tarixin bütün zamanlarında vardır və xislətləri dəyişməz olaraq qalır. Ayıq-sayıq olun, ey insanlar, erməni ermənilliyndə qalır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiyalı ekspert: "Bu, Ermənistan üçün pis qurtaracaq"



***İqor Korotçenko: Ermənistan Xarici İşlər Nazirliyinin adını çoxdan Təbliğat və Faktların Saxtalaşdırılması Nazirliyi adlandırmaq olar***

***Nüfuzlu rusiyalı politoloq, "Nasionalnaya oborona" (Milli Müdafiə) jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədindəki missiyasının qeyri-mülki xarakter daşıması, həmçinin 2-ci Qarabağ müharibəsində məğlub olan Ermənistanın niyə 2 ildən sonra Moskva və Bakı üçün şərtlər qoymaq qərara gəlməsinin səbəblərindən danışıb.***




**- İqor Yuryeviç, keçən həftə Fransada Aİ missiyasının tərkibində Ermənistan-Azərbaycan sərhədinə öz jandarmlarının göndərildiyini elan etdilər. Bu gün Moskvada azərbaycanlı həmkarı ilə görüşdə Rusiya Federasiyası Dövlət Dumasının sədri faktiki olaraq bu missiyanın Ermənistana göndərilməsi ilə bağlı qərarın qəbul edilməsi faktına istinad edib və qeyd edib ki, "Avropa qurumlarının tərəfindən bəyanat verənlər ölkəni sadəcə itirə bilərlər".**

- Avropa İttifaqı və xüsusən də, bu yolla özünəməxsus müstəmləkəçilik siyasətini davam etdirməyə çalışan Fransa üçün bu missiya müşahidə missiyası kimi deyil, ilk növbədə, onu tam hüquqlu missiyaya çevirmək perspektivi ilə kəşfiyyat missiyası və Ermənistanda hərbi mövcudluq kimi qəbul edilir. Missiya çərçivəsində işləyəcək müşahidəçilərin tərkibinə müntəzəm olaraq diplomatik pərdə altındakı Qərb kəşfiyyatçıları, həmçinin hərbçilər, polislər və hüquq-mühafizə orqanlarının digər nümayəndələri daxil olacaq. Bu missiyanın məqsəd və vəzifələri Paşinyanın dəvətindən istifadə edərək, Azərbaycanın razılığı olmadan və ondan yan keçməklə Cənubi Qafqaz regionuna daxil olmaq, orada möhkəmlənmək cəhdidir. Və sonra, bölgədə bir mövqe qazanaraq, gələcəkdə onların mövcudluğunu daimi etmək üçün metastazlara başlamaq.

Ermənistanın baş naziri də istərdi ki, Qarabağdakı Rusiya sülhməramlıları Qərb qüvvələri ilə əvəzlənsin. Amma bu məsələni prinsipial olaraq müzakirə etmək olmaz. Bu, Azərbaycan ərazisidir, Rusiya və Azərbaycan Rusiya sülhməramlılarının Qərb qüvvələri ilə əvəzlənməsi cəhdinin qarşısını alacaq.

**Ermənistan-Azərbaycan sərhədinə Avropa missiyasının göndərilməsi Ermənistanı Rusiyanın təsirindən qoparmaq ayırmaq üçün əlavə vasitədir. Ermənistanın baş naziri bunu istəyir, o, buna hazır olduğunu dəfələrlə nümayiş etdirib.**

Paşinyanın fikrincə, Aİ missiyası kifayət qədər güclü dayaqdır və ona arxalanaraq, Ermənistanın baş naziri Moskva ilə daha kəskin danışa biləcək. O, Rusiya Federasiyası ilə ortamüddətli perspektivdə müttəfiqlik münasibətlərindən çəkilmə vektorunu nümayiş etdirir. Bu, həm də Ermənistanın KTMT-yə qarşı yönəlmiş siyasətinin nümayişidir. Bu barədə heç bir şübhə yoxdur.

Aİ missiyası avropalı müşahidəçilərin Azərbaycana qarşı mənfi atmosfer yaratması üçün lazımdır.

Baş verənlər həmişə baş verənlərdir. Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi bütün razılaşmaları pozur. Demaqogiya və yalanlar davam edir. Ermənistanın və ondan alət kimi istifadə edən Qərbin səyləri ilə Azərbaycana təzyiqlər artır. Bu, Ermənistana sevgidən irəli gəlmir. Ekspertlərin məlumatlarına istinad edilib ki, yanvar ayından beynəlxalq erməni diasporunun səyləri ilə Laçın dəhlizi ətrafında yaranmış vəziyyətlə bağlı Azərbaycana qarşı böhtan kampaniyasına 50 milyon dollara yaxın vəsait ayrılıb. İndi də bu pulları ermənipərəst siyasətçilərin açıqlamalarında görürük. Nəticə üçün pul alınır və biz bunu görürük.

Yeri gəlmişkən, Ermənistanda Qərb missiyasının yerləşdirilməsi digər regional oyunçuların, xüsusən də, İranın maraqlarına zərbə vurur. Tehran başa düşməlidir ki, Ermənistan ərazisində olan Qərb kəşfiyyatçıları başqa şeylərlə yanaşı, İslam Respublikasının özü haqqında da məlumat toplayacaqlar. Qərb müşahidəçiləri diplomat adı altında erməni məxfi xidmət əməkdaşlarını öz sıralarına cəlb edəcək, onlarla qeyri-rəsmi və çox vaxt gizli əlaqələr quracaqlar. Ona görə də belə bir missiyanın yerləşdirilməsi İranın milli təhlükəsizliyinə, o cümlədən Rusiya və Azərbaycanın təhlükəsizliyinə ziddir.

Qlobal miqyasda İran rəhbərliyi aydın şəkildə dərk etməlidir ki, Ermənistan Qərbin dayağına çevrilir. İranın sərhəddində NATO hərbi bazası olması nəyə lazımdır? Üstəlik, Ermənistan xarici siyasət vektorunu çox tez dəyişməyə qadir ölkə kimi tanınır. Budur, əyani bir misal- "mən Rusiya ilə dost idim, indi "bang" və bu qədər"... Münasibətlər, yumşaq desək, sürətlə pisləşir. Bu, İrəvan-Tehran yolunda da baş verə bilər. Hesab edirəm ki, Cənubi Qafqaz və Xəzər regionunda Avropa İttifaqının olması region ölkələrinin ümumi maraqlarına cavab verir. Amma çox təəssüf ki, proses artıq başlayıb və biz onun nəticələri ilə üzləşəcəyik.

Rusiya "müşahidə missiyası"nı mənfi qiymətləndirir. Bu, heç kimə, o cümlədən Ermənistanın özünə yaxşı heç nə gətirməyəcək.




- Ermənistanın baş naziri sərhəddə Aİ missiyasının yerləşdirilməsinə haqq qazandırmağa çalışır. Bəzən bunun üçün kifayət qədər fantastik izahatlara əl atır, Moskva və Bakını sıxışdırmağa çalışır. Moskva bu yanaşmanı görür və Rusiya Xarici İşlər Nazirliyi bunu bir daha göstərərək, buna bəraət qazandırmaq cəhdini uğursuz adlandırıb...

- Şübhə yoxdur ki, Moskvanın mövqeyi bağlı qapılar arxasında İrəvanın diqqətinə çatdırılıb. Gördüyümüz kimi, müntəzəm olaraq ictimai müstəvidə də ortaya qoyulur. Amma görünür, Kremlin siqnalları Ermənistan hakimiyyətinə "çatmır". Nəticə etibarı ilə hansı siyasət yeridiləcəyi ilə bağlı bütün qərarlar İrəvan tərəfindən verilib. Unutmayaq ki, İrəvana Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru, Mİ6-nın rəhbəri Nensi Pelosi də gəlib. Bundan başqa, Ermənistan Təhlükəsizlik Şurasının katibinin etdiyi səfərlər zamanı Parisdə Fransa xarici kəşfiyyatının direktoru ilə görüşlər olub. Ona görə də təbii ki, proses hazırlanır və işə salınır. Dayandırıla bilər, ya yox, bu, müvafiq səlahiyyətlərə malik olanlar üçün sualdır, bu, çox da bilinməyən bir sualdır. Amma indiki vəziyyətin mənfi nəticələri göz qabağındadır.

**- Xatırlayırıq ki, ötən ilin dekabrında Moskvada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində keçirilən üçtərəfli görüşü pozan məhz İrəvan olub. İrəvandakı nasazlığın səbəbi Laçın yolunda yaranmış vəziyyət idi və bununla da, mahiyyətcə danışıqların davam etdirilməsi üçün şərt qoyuldu. Bu gün qəfil Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının rəhbəri bəyan edib ki, İrəvan üçtərəfli görüşə hazırdır və Laçın yolunda vəziyyəti həll etmək üçün ona şərt qoymaq fikrində deyil. Bu dəyişiklik haradan qaynaqlanır, nə baş verir?**



**- Siyasi vəziyyətin küləyinin hara əsməsindən asılı olaraq, Ermənistan mövqeyini dəyişir. Ermənistanın mövqeyi qeyri-konstruktiv olaraq qalır. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatı, o cümlədən ən yüksək səviyyədə əldə olunmuş sonrakı razılaşmalar İrəvan tərəfindən yerinə yetirilmir: Zəngəzur dəhlizi layihəsi Ermənistan tərəfindən bloklanır, sərhədin demarkasiyası və delimitasiyasına İrəvanın günahından başlanılmır. Çoxlu problemlər var. Ararat Mirzoyan bu gün üçtərəfli formatda görüşməyə hazırdır, yoxsa yenə imtina edəcək? Ermənistan son illərdə etdiyi siyasi demaqogiya ilə yenə də məşğul olacaq. Heç nə dəyişməyəcək. İrəvanın sağlam yanaşmasından danışmağın mənası yoxdur. Ermənistan Xarici İşlər Nazirliyinin adını çoxdan Təbliğat və Faktların Saxtalaşdırılması Nazirliyi adlandırmaq olar.**

Lakin İrəvanın iki il ərzində üçtərəfli razılaşmaları yerinə yetirməməsi, Qərbin dəstəyini qazanması bir yana, Ermənistan həyasızlaşmağa və cəmiyyətdə qisas almaq ehtimalı ilə bağlı psevdosensiyası yaratmağa, nəyisə geri qaytarmağa çalışmağa başladı. Özü üçün belə bir vəziyyətdə vəziyyətdə hətta Rusiya və Azərbaycan üçün şərtlər qoymağa çalışır. Amma bunun sonu Ermənistan üçün pis olacaq.

Bunlar reallıqlardır. Bu, bizim yaşadığımız, indi gözümüzün qarşısında anlaşılmaz bir istiqamətə çevrilən yeni dünyadır. Getdikcə daha çox qarışıqlıq və gözlənilməzlik var. Ona görə də biz sadiq, etibarlı müttəfiqləri, onlarla işləyə biləcəyimizi, onlara etibar edə biləcəyimizi əməli ilə sübut etmiş tərəfdaşları dəyərləndirməliyik. Hesab edirəm ki, burada Rusiya və Azərbaycan öz ümumi maraqlarını aydın şəkildə anlamalı və onları həyata keçirməlidir.

**- Bir neçə gün əvvəl Rusiya Federasiyası Dövlət Dumasının sədri ilə Azərbaycan Milli Məclisinin sədri Moskvada əməkdaşlıq haqqında saziş imzaladılar.**

- Bu, çox yaxşıdır. Amma eyni zamanda, erməni lobbiçilərinin ağı qara, qaranı ağ adlandıraraq öz ölkələrinin milli maraqlarına zidd getdikləri mənzərəni görürük. Onların adları hamıya məlumdur. Və buna görə cavab verməlidirlər-maksimum mandatdan məhrum edilməlidirlər, ən azı- intizam tənbehi, ictimai qınaq lazımdır. Biz gözləyəcəyik ki, Dövlət Dumasının sədri bunu etnik ədavəti qızışdırmağa, milli maraqlara zərbə vurmağa çalışan ayrı-ayrı deputatlardan soruşacaq.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
16 fevral
2023-cü il

# “Təhsil onlayn rejimə keçməməlidir”



*“Türkiyədə fevral ayının 6-da baş verən zəlzələ kifayət qədər böyük faciəvi bir hadisədir və çox təəssüf ki, insan ölümlərinin həcmi kifayət qədər çoxdur. Bu, ərin ən ağır zəlzələsi hesab oluna bilər. Təbii ki heç bir dövlət baş verən bədbəxt hadisələrdən sığortalanmayıb. Amma zərərin minimuma enməsi üçün addımlar atılmalıdır. Bunları da bir neçə hissəyə bölə bilərik". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.*

TƏHSİL EKSPERTİ MÜNASİBƏT BİLDİRDİ





Onun sözlərinə görə, bu birincisi tədrisin məsafədən təhsilə keçməməsi ilə bağlıdır: ”Çünki biz uzun müddət pandemiya dövründə onlayn rejimdə dərs keçmişik və xüsusən mühəndislik, tibb ixtisası çox ağır təhlükələr törədə bilir. Çünki pandemiya dövründə gördük ki, bu ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilə bilməz. Təbii ki, Türkiyə tərəfindən atılan addım müəyyən qədər başa düşüləndir. Amma burada yataqxanaların istifadəyə verilməsi anlaşılan deyil. Birinci ona görə ki, hal-hazırda Türkiyədə ümumi yataqxanalarda yataq yerlərinin sayı 850 min civarındadır və bura mütləq şəkildə bütün zəlzələdən əziyyət çəkənlərin yerləşdirilməsi mümkün deyil. Amma təbii ki bundansa, orada digər ictimai iaşə obyektlərinin, yəni otellərin istifadə edilməsi daha yaxşı olardı. Çünki heç də yataqxanalar hər yerdə deyil, amma otellər daha çoxdur. Türkiyədə otelin tutumu



1 milyon 800min yerdir”.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Bir məsələni xüsusən qeyd etmək istəyirəm ki, bu günləri Türkiyədə 22 minə yaxın Azərbaycanlı tələbə təhsil alır və onların orada hal-hazırda müəyyən qədər çətinlikləri var. Hətta zəlzələ baş verən ərazilərdə belə çox təəssüf ki, biz dağıntılar altında qalan tələbələrlə bağlı məlumatları tam olaraq ala bilməmişik. Hesab edirəm ki Azərbaycan tərəfi hava yolları mütləq şəkildə göstəriş vermәlidir ki, həmin tələbələrin Azərbaycana gəlməsi ilə bağlı ciddi şəkildə endirim etməlidirlər. Çünki hal-hazırda həm tədrisin təşkili qaydası Türkiyədə mümkün deyil, həm də həyati təhlükə hələ də müəyyən qədər davam edir. Bu amillər zəruri amillərdir.

Digər bir tərəfdən, çox təəssüf ki, Azərbaycan tərəfi, xüsusən də Elm və Təhsil Nazirliyi tələbələrin köçürülməsi ilə bağlı qaydaları hələ müəyyənləşdirməyib. Onların əsas göstərdiyi attestatla qəbul qaydaları yanlışdır. Biz həmin şəxslərin Azərbaycanda təhsilini davam etdirməsinə şərait yaratmalıyıq. Digər tərəfdən də artıq pandemiya dövrü başa çatıb. Mən hesab edirəm ki, sərhədlər tam olaraq açılmalıdır. Bu insanların daha ucuz gediş-gəlişinə də dəstək verəcək. Təbii Azərbaycan Türkiyədə zəlzələ baş verən kimi ilk bütün resurslarını səfərbər edən, köməyə gedən ölkələr sırasındadır və düşünürəm ki, Azərbaycan-Türkiyə sərhədi bağlı olmamalıdır. Çünki Türkiyədən heç bir halda bizə, bizdən də Türkiyəyə təhlükə gələ bilməz. Burada kifayət qədər insanlar var. Onların gediş-gəlişi daha rahat təşkil edilməlidir. Yəni 21 min 600 Türkiyədə təhsil alan Azərbaycanlılar var. Bütün bu amilləri nəzərə alaraq Azərbaycan-Türkiyə sərhədi açılmalı, eyni hava və quru yolundan istifadə üçün xidmət haqqları ciddi şəkildə aşağı endirilməlidir. Biz gördük zəlzələ baş vermiş ərazidə ciddi şəkildə Türkiyə hökuməti, Türk Hava Yolları qiymət endirimləri edir. Düşünürəm ki, Azərbaycan Hava Yolları da bu istiqamətdə addım atmalıdır”.

***Ayşən Vəli***



# Azərbaycanda bələdiyyə bağçalarının açılması təklif edilir

Azərbaycanda bələdiyyələrin uşaq bağçaları açması təklif edilir. SİA-nın məlumatına görə, bu təkliflə Milli Məclisin Regional məsələlər komitəsinin dünən keçirilən iclasında deputat Tahir Rzayev çıxış edib. O qeyd edib ki, qanunvericilik bələdiyyələrə belə bir imkan yaradır.

”Elə şəhər bələdiyyələri var ki, onun büdcəsi artıq 1 milyona çatıb. Bu çox yaxşı rəqəmdir. İki-üç bələdiyyə yığışıb ərazisində bir uşaq bağçası tikə bilər. Bu gün uşaq bağçalarına böyük ehtiyac var. Ona görə də bələdiyyələr özəl bağça yarada bilərlər. 1600-dən çox bələdiyyədən heç birinin hələ də uşaq bağçası yoxdur ”, - deyə T.Rzayev əlavə edib.

# Don vurmuş insan necə qidalanmalıdır?



“Don vurmuş insanların, ilk növbədə, isti içkilər və şorbalar qəbul etməsi məqsədə uyğundur. Burada insanın hansı şəraitdə soyuq havada qaldığı da böyük önəm daşıyır. Əgər şəxs uzun müddət qarda donvurmadan əziyyət çəkibsə, bu zaman mütləq şəkildə ilk olaraq quru və isti yerə keçirilməlidir”. Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.

Onun sözlərinə görə, həmin insanların üzərində islanmış paltarlar varsa, onlardan qurtulmaq lazımdır: ”Daha sonra isə mövcud vəziyyətə uyğunlaşdıqdan sonra az miqdarda içki ilə qida qəbuluna başlanıla bilər. Hər hansı bir xəsarət alınıb və ya daxili orqanlarda zədələnmə mövcuddursa, dərhal həkim müdaxiləsi olmalıdır. Yalnız bundan sonra hər hansı bir qida qəbulu uyğun görülür”.

***Səbinə Hüseynli***

## Telefonu yanına qoyub yatanlar dəli ola bilər

Somnoloq, funksional diaqnostika üzrə həkim Tatyana Surnenkova xəbərdarlıq edib ki, smartfonu yanınıza qoyub yatırsınızsa, bu, psixi sağlamlığa olduqca mənfi təsir göstərir.

Bu sözləri o, ”Prime” agentliyinə müsahibəsində deyib. Ekspertin sözlərinə görə, telefon yuxu dövrünü pozur, ekranın parlaq parıltısı və yuxu hormonu olan melatonin istehsalının azalması səbəbindən yuxuya getmək çətinləşir. Bundan əlavə, Surnenkova qeyd edib ki, parlaq işıq emosiyaların və yaddaşın formalaşmasına təsir edən yuxunun mühüm mərhələsini boğur.

Somnoloq yatmazdan əvvəl qadcetdən istifadə etməyin təhlükələrini də xatırladıb. O, izah edib ki, əgər insan yatmazdan əvvəl telefonda vaxt keçirirsə, o zaman onun yuxuya getməsi çətinləşəcək, çünki məlumat çoxluğu onda həyəcanlı vəziyyətə səbəb olacaq. Surnenkova axşam saat ondan sonra smartfondan istifadə etməməyi məsləhət görüb. Bundan əlavə, o qeyd edib ki, gecə telefon ”narahat etməyin” rejiminə keçirilməli, hətta söndürülməlidir.

Mütəxəssis əlavə edib ki, yuxu izləmə proqramları effektiv deyil. ”Onların dəqiqliyi olduqca şübhəlidir və yuxularının keyfiyyəti ilə bağlı həddindən artıq narahatlıq gələcəkdə xroniki yuxusuzluğa səbəb ola bilər”, - mütəxəssis xəbərdarlıq edib.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**